

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## İslam dünyasının paytaxtı Şuşamız




5

SƏS

№ 213 (6896)

22 noyabr 2023-cü il.
Qiymәti 60 qәpik

# "Azərbaycan kolonializmə qarşı mübarizə aparan və azad olmağa çalışan xalqları dəstəkləyir"



3

Prezident İlham Əliyevin Bakıda keçirilən "Dekolonizasiya: Qadınların gücləndirilməsi və inkişaf" mövzusunda beynəlxalq konfransın iştirakçılarına müraciət ünvanlayıb

# Kölələr "ağa"lara qarşı



4

## Hikmət Hacıyev: "Azərbaycan Ermənistanla sülh sazişinin imzalanması üçün heç bir maneə görmür"



3

## Milli Məclis gələn ilin dövlət büdcəsini təsdiqlədi



8

## Bizi gözləyən təhlükə: HEPATİT A



10

## Qış turizmi neçəyə başa gəlir?



16

## Ömrümüzdən ötən PAYIZ...... DÜŞÜNCƏLƏR



12

# Azərbaycan-İraq əməkdaşlığında yeni hədəflər

## Prezident İlham Əliyev: "Heç bir beynəlxalq təzyiq Azərbaycan xalqının və Azərbaycan hökumətinin iradəsinə təsir göstərə bilməz"

**Azərbaycanın bir çox dünya ölkələri ilə olduğu kimi, İraq Respublikası arasında ikitərəfli münasibətləri uğurla inkişaf edir. 02 yanvar 1992-ci il tarixində İraq Azərbaycan Respublikasının müstəqilliyini tanımış və elə həmin ildən ölkələr arasında diplomatik münasibətlər qurulmuşdur. 1992-ci ildə İraqın Bakıdakı diplomatik nümayəndəliyi Baş Konsulluq səviyyəsindən Səfirlik statusuna qaldırılmışdır. 2016-cı ilin oktyabr ayında Bağdad şəhərində Azərbaycan Respublikasının səfirliyi fəaliyyətə başlamışdır.**

Tarixi dövrə nəzər salsaq görərik ki, 18 yanvar 2017-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda keçirilən dünya iqtisadi forumunda iştirakı çərçivəsində İraq Kürdüstan Regional Hökumətinin başçısı M.Bərzani ilə görüşmüşdür. 2019-cu il tarixlərində Bakıda keçirilən Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşü çərçivəsində İraq Respublikasının Xarici İşlər naziri Məhəmməd Əli Əl-Hakimin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycanda səfərdə olmuşdur.

Azərbaycan Respublikası ilə İraq Respublikası arasında müxtəlif sahələrdə əməkdaşlıq haqqında müxtəlif sənədlər imzalanmışdır. İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşidin Azərbaycana səfəri əlaqələrin davamlığına əsaslanır. Noyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşidin iştirakı ilə sənədlərin imzalanması bu əlaqələrin təməlinin möhkəmləndirilməsinə







və genişləndirilməsinə yeni prespektivlər açır. "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə İraq Respublikasının Əmək və Sosial İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi ilə İraq Respublikasının Mədəniyyət, Turizm və Tarixi Abidələr Nazirliyi arasında turizm sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə İraq Respublikasının Xarici İşlər Nazirliyi arasında siyasi məsləhətləşmələr haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikası Hökuməti ilə İraq Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Saziş"i imzalanması əlaqələrin davamlığına söykənir. Səfər çərçivəsində gələcək əməkdaşlığımız üçün əsas istiqamətləri müəyyənləşdirilib.

### "BEYNƏLXALQ TƏSİSATLARDA BİR-BİRİMİZİ DƏSTƏKLƏMƏYƏ DAVAM EDƏCƏYİK"

Azərbaycan və İraq beynəlxalq aləmdə hər zaman bir-birinin yanında olan ölkələr olmuşdur. Noyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid mətbuata bəyanatlarla çıxışı zamanı dövlət başçımız bildirib ki, biz sözsüz ki, beynəlxalq təsisatlarda bir-birimizi dəstəkləməyə davam edəcəyik: "İraq və Azərbaycan müxtəlif beynəlxalq təsisatlarda hər zaman həmrəylik nümayiş etdirir. Biz BMT-də, Qoşulmama Hərəkatında, İslam Əməkdaşlıq Təşkilatında hər zaman bir-birimizi dəstəkləyirik, bir-birimizin suverenliyini və ərazi bütövlüyünü müdafiə edirik".

Cənab Prezident çıxışı zamanı Prezidentin qonşu Ermənistana da səfər edəcəyini bildirərək iki ölkə arasındakı hazırkı vəziyyətlə bağlı onu məlumatlandırıb: "Hazırda baş verənlərin dəqiq təhlili üçün bizim hamımız keçmişimizə, 1990-cı illərin əvvəlində nə baş verdiyinə nəzər salmalıyıq. 1990-cı illərin əvvəlində Ermənistan Azərbaycana qarşı təcavüzə başladı, bu, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin təqribən 20 faizinin işğalı ilə nəticələndi, etnik təmizləmə siyasəti həyata keçirdi ki, bu da bir milyondan çox azərbaycanlının keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin və ətraf rayonların ərazisindən fiziki qovulması ilə nəticələndi. Beləliklə, qeyd etdiyim kimi, bu, ərazimizin təqribən 20 faizini təşkil edirdi və uzun illər ərzində onlara məxsus olmayan ərazini geri qaytarmaqdan imtina edirdi". Beynəlxalq vasitəçilik səylərinin illərlə özünü doğrultmadığını və heç bir nəticəyə nail olunmadığını bildirən dövlət başçımız "Mandatı işğala son qoymaq üçün həll yolu tapmaqdan ibarət olan ATƏT-in Minsk qrupu yaradılandan 28 il sonra Azərbaycan beynəlxalq səviyyədə tanınmış ərazilərini özü döyüş meydanında, hərbi gücdən və BMT Nizamnaməsinin özünümüdafiə hüququna dair 51-ci maddəsi ilə bizə verilmiş qanuni imkandan istifadə edərək işğaldan azad etdi" deyə bildirib.

### AZƏRBAYCAN TARİXİ ƏDALƏTİ 44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİNDƏ ƏLDƏ ETDİ

Qeyd edək ki, Ermənistan-Azərbaycan, Qarabağ münaqişəsi başladıqdan sonra uzun müddət bu problem beynəlxalq ictimaiyyətin diqqətini cəlb etmədi. Bunun birinci səbəbi ondan ibarət idi ki, münaqişənin start götürdüyü ilkin mərhələdə dünya birliyi onun aradan qaldırılmasında maraqlı deyildi. Çünki bu problem SSRİnin dağılması prosesini sürətləndirən çoxsaylı amillərdən biri kimi çıxış edirdi və onun aradan qaldırılması Sovet İttifaqının daxilində gedən dağıdıcı proseslərə mane ola bilərdi. 1992-ci ildə erməni silahlı birləşmələri respublikamızın ərazilərinin işğalına istiqamətlənmiş hərbi əməliyyatların miqyasını kifayət qədər genişləndirmişdilər. Lakin heç bir beynəlxalq təşkilat hamının gözü qarşısında baş verməkdə olan və beynəlxalq hüquq normalarını kobud şəkildə tapdalayan bu işğalçılıq əməllərinə obyektiv qiymət vermədi. Doğrudur, müxtəlif dövrlərdə BMT-nin, ATƏT-in, Avropa Birliyinin bu barədə müəyyən qətnamələri, bəyanatları meydana çıxdı, bununla belə, həmin sənədlər münaqişənin həqiqi səbəblərini dəqiq şəkildə qiymətləndirmir, təcavüzkarla təcavüzə məruz qalan tərəf arasında heç bir fərq qoymurdu. Azərbaycan tarixi ədaləti 44 günlük Vətən müharibəsində əldə etdi.

"Bundan sonra Ermənistan öz öhdəliklərinə əməl edəcək və hərbi kontingentinin qalan hissəsini Azərbaycan ərazisindən çıxaracaq, lakin bu, baş vermədi: "Biz demək olar ki, 3 il çox səbirli olduq, Ermənistanla birbaşa təmaslarımız, beynəlxalq vasitəçilər vasitəsilə mesaj göndərməyə çalışdıq ki, bu, qəbuledilməzdir, biz hətta Azərbaycanın kiçik bir hissəsində qanunsuz separatçı rejimin olmasına imkan verə bilmərik. Qeyd etdiyim kimi, işğal olunmuş ərazilərin böyük hissəsi 2020-ci ildə azad edilmişdi. Əfsuslar olsun ki, Ermənistan hökuməti bizə qulaq asmadı, Qərbdəki məsləhətçilərinə qulaq asdı. O məsləhətçilər isə onlara yaxşı məsləhət vermədilər. Əfsuslar ki, onların məsləhəti hərbi kontingenti bizim ərazimizdə mümkün qədər çox saxlamaqdan ibarət oldu".

Vəziyyətin tarixçəsini qeyd edən Azərbaycan Prezidenti Azərbaycanın sülh müqaviləsinin layihəsi ilə bağlı təkliflərinin mübadilə olunduğunu bildirib. Lakin sentyabrın 11-dən bəri Ermənistan hökumətindən bu qeydlərlə bağlı rəyinin nədən ibarət olduğuna dair cavab verməsini iki aydan artıqdır ki, gözləyirik və bizə heç bir cavab gəlməyib.

Cənab Prezident onu da bildirib ki, qeydlərimiz ilə bağlı Ermənistandan nə qədər tez cavab alsaq bir o qədər də yaxşı olar: "Heç bir beynəlxalq təzyiq Azərbaycan xalqının və Azərbaycan hökumətinin iradəsinə təsir göstərə bilməz. Ermənistan indi dünyanın müxtəlif yerlərində olan diaspor təşkilatlarından Azərbaycana hər yerdə hücum etmək üçün istifadə edir. Lakin onlar üçün bu, sıfır nəticə verəcək. Biz sülhə hazırıq, lakin ədalətli sülhə, hər iki ölkənin ərazi bütövlüyünün və suverenliyinin tanınması əsasında olan sülhə. Biz sağlam düşüncəyə və tarixi ədalətə əsaslanan sülhə hazırıq. Beləliklə, mən həmkarımı bu barədə məlumatlandırdım ki, Cənubi Qafqazda real vəziyyəti daha yaxşı anlamaq mümkün olsun."

### "BİZ BEYNƏLXALQ HÜQUQA TAM RİAYƏT EDƏRƏK ÖZ SUVEREN ƏRAZİMİZDƏ ANTİTERROR ƏMƏLİYYATINI APARDIQ"

44 günlük Vətən müharibəsindən sonra deyəsən, "dəmir yumruğ"un gücünü görmüş ermənilər unutqanlıq edirlər. Yaxın keçmişimizdə aldığı zərbələri yaddan çıxarırdılar. Rusiya Federasiyası sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri 10 noyabr 2020-ci il tarixli Bəyanatının müddəalarını kobud surətdə pozaraq ötən ilin avqustun 3-də Azərbaycan Ordusunun bölmələrinə qarşı terror-təxribat əməli törətdilər. Bundan əlavə, qeyri-qanuni erməni silahlı dəstələrinin ünsürləri Kəlbəcər və Laçın rayonlarının ərazisini əhatə edən dağ silsiləsində yerləşən Qırxqız yüksəkliyini ələ keçirmək və orada yeni döyüş mövqelərini qurmağa cəhd göstərib. Azərbaycan Ordusu bölmələrinin keçirdiyi "Qisas" cavab əməliyyatı nəticəsində Qırxqız yüksəkliyi, həmçinin Kiçik Qafqaz dağ silsiləsinin Qarabağ silsiləsi boyu Sarıbaba və bir sıra digər əhəmiyyətli hakim yüksəklikləri nəzarətə götürdü. Ermənilər bu günə qədər Azərbaycan ordusunun gücünə, Ali Baş Komandanın siyasi gücünə, iradəsinə yaxşı bələddirlər.

2023-cü ilin 19 sentyabrında Azərbaycan Ordusunun Qarabağda başlatdığı lokal xarakterli antiterror tədbirlərinin qısa müddətdə öz müsbət nəticəsini verməsi, separatçıların təslim olması əlbəttə ki, ölkəmizin növbəti uğurudur. Lokal xarakterli antiterror tədbirlərinin dayandırılması barədə razılıq əldə edilib. Cənab Prezident "Bizim səbrimiz bu ilin sentyabrında tükəndi və biz beynəlxalq hüquqa tam riayət edərək öz suveren ərazimizdə antiterror əməliyyatını apardıq. Bu əməliyyat 24 saatdan az davam etdi və mülki əhali arasında itkilər olmadı. Düşünürəm ki, indi Yaxın Şərqdə müşahidə etdiklərimizə münasibətdə bu antiterror əməliyyatı mülki əhali arasında hərbi əməliyyatları itkisiz necə aparmaq lazımdır nöqteyi-nəzərdən bir örnək hesab olunmalıdır"-deyə bildirib.

Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyəti, müdrik siyasətinin nəticəsidir ki Azərbaycan tarixinə böyük uğurlar və nailiyyətlər həkk olunur.

Qeyd edək ki, bu səfər hər iki ölkə arasında əməkdaşlığın daha da yaxşılaşması uğurlara gətirib çıxaracaqdır.

*Nəzakət ƏLƏDDİNQIZI*

# ”Azərbaycan kolonializmə qarşı mübarizə aparan və azad olmağa çalışan xalqları dəstəkləyir”

## Prezident İlham Əliyevin Bakıda keçirilən "Dekolonizasiya: Qadınların gücləndirilməsi və inkişaf" mövzusunda beynəlxalq konfransın iştirakçılarına müraciət ünvanlayıb

**“Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi kolonializmə qarşı mübarizə aparan və azad olmağa çalışan xalqları dəstəkləyir.” Bu fikirlər Azərbaycan Prezidenti İlham Əliyevin noyabrın 21-də Bakıda keçirilən ”Dekolonizasiya: Qadınların gücləndirilməsi və inkişaf” mövzusunda beynəlxalq konfransın iştirakçılarına müraciətində yer alıb.**

Müraciətdə, həmçinin qeyd edilib: ”Sizin 2023-cü ilin 6 iyul və 20 oktyabrında Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi çərçivəsində Bakıda keçirilən Nazirlər Toplantısı zamanı, həmçinin cari ilin 22 sentyabrında Nyu-Yorkda BMT Baş Assambleyasının qərargahında, bu gün isə yenidən Bakıda bəşəriyyət üçün xüsusi aktuallıq kəsb edən kolonializm, onun fəsadları və neokolonializmlə mübarizəyə həsr olunmuş tədbirdə iştirakınız Azərbaycanın Qoşulmama Hərəkatının sədri kimi bu məsələyə göstərdiyi dəstəyinin əyani göstəricisidir”.



Azərbaycan Prezidenti İlham Əliyev müraciətində diqqətə çatdırıb ki, Fransa təkcə keçmiş və indiki müstəmləkələrində deyil, eyni zamanda, bizim regionumuzda - Cənubi Qafqazda sabitliyi pozur, separatizm meyillərini və separatçıları dəstəkləyir. Dövlətimizin başçısı bildirib: ”(Fransa - red.) Ermənistanı silahlandırmaqla militarist siyasət həyata keçirir, revanşist qüvvələri təşviq edir, regionumuzda yeni müharibələrin başlaması üçün zəmin hazırlayır. Eyni zamanda, Fransa BMT Təhlükəsizlik Şurasının daimi üzvü statusundan öz qərəzli, qeyri-obyektiv siyasətini yürütmək üçün sui-istifadə edir, müxtəlif regionlarda geosiyasi intriqalarla məşğul olur, Qərb təşkilatlarından digər dövlətlərə qarşı təzyiq vasitəsi kimi istifadə etməyə cəhdlər göstərir.

Əsrlər keçsə də, siyasət və təfəkkür dəyişmədiyi üçün Fransa kolonializminin utancverici yeni metodları bu gün də davam etməkdədir.”

Müraciətdə bu konfransda təmsil olunan dənizaşırı ərazilərin xalqlarının uzun illərdir müstəqillik uğrunda mübarizə apardıqlarını xüsusi vurğulayan Prezident İlham Əliyev qeyd edib: ”Kolonializm tarixindən əl çəkə bilməyən Fransa Avropadan kənarda, Sakit, Hind və Atlantik okeanlarında dənizaşırı ərazilərdə yaşayan xalqların azadlıq arzularına və hüquqlarına hörmət etmir, bu arzuların reallaşmasının qarşısının alınması üçün hər vəchlə çalışır. Həmçinin Afrika qitəsindəki keçmiş müstəmləkələrinin daxili işlərinə kobud müdaxilələr etməkdə davam edir, burada sabitliyin əldə edilməsinə maneə olur. Fransa kolonializmi barədə dənizaşırı regionlardan olan siyasətçilərin səsləndirdiyi fikirlər dəhşət doğurur.

Bəşəriyyətin kolonializm tarixinin qanlı cinayətlərinin çoxu məhz Fransa tərəfindən törədilmişdir. Afrika, Cənub-Şərqi Asiya, Sakit Okean, Atlantik və Hind okeanları regionlarında, Latın Amerikasında onlarla ölkəni işğal edən, sərvətlərini talayan, xalqlarını uzun illər əsarətdə saxlayan Fransa həmin ərazilərdə hərbi və bəşəriyyət əleyhinə çoxsaylı cinayətlər törətmiş, fransız silahlı qüvvələri etnik və dini mənsubiyyətinə görə yüz minlərlə dinc sakini soyqırımına məruz qoymuşdur.”

Müraciətdə Fransanın fəal surətdə məşğul olduğu qul ticarətinin insanlığın ən utancverici səhifələrindən birini təşkil etdiyini, milyonlarla afrikalının Fransanın qul siyasətinin qurbanı olduğunu xüsusi vurğulayan Prezident İlham Əliyev qeyd edib: ”Mən Fransanın işğal etdiyi ölkələrdə həyata keçirdiyi insanlıq əleyhinə çoxsaylı cinayətləri, törətdiyi vəhşilikləri Qoşulmama Hərəkatının sədri kimi bir neçə dəfə faktlarla sadalamışam. Əlcəzair, Mərakeş, Tunis, Mali, Cibuti, Nigeriya, Çad, Seneqal, Benin, Kot-d'İvuar, Mərkəzi Afrika Respublikası, Qabon, Toqo, Kamerun, Vyetnam, Qəmər Adaları İttifaqı, Haiti və digər ölkələrdə bir neçə milyon günahsız insan, o cümlədən qadınlar və uşaqlar Fransa tərəfindən qətlə yetirilib. Fransa, eyni zamanda, 1994-cü ildə Ruandada tutsi qəbiləsinin 800 mindən çox üzvünün öldürülməsinə görə birbaşa məsuliyyət daşıyır”.

Dövlətimizin başçısı müraciətində qeyd edib ki, müxtəlif qitələri təmsil edən 18 ölkədən 40-dan artıq təmsilçinin növbəti dəfə Bakıda toplaşaraq, XXI əsrdə təəssüf ki, hələ də davam edən kolonializm siyasətini pisləməsi, müstəmləkə altında saxlanılan ərazilərdə qadınların vəziyyətinə dair gerçəkliklər dünya ictimaiyyətinə çatdırması, müstəmləkəçiliyin aradan qaldırılması istiqamətində sistemli və ardıcıl iş aparması və təşkilatlanması sevindirici haldır.

Azərbaycanda tarixən qadına göstərilən hörmətin, qadın adının uca tutulmasının xalqımızın ən ali mənəvi keyfiyyətlərindən biri olmasının vurğulandığı müraciətdə bildirilib: ”Azərbaycan qadınları tariximizin bütün dövrlərində taleyüklü məsələlərin həll edilməsinə, habelə xalqımızın azadlıq mübarizəsində və torpaqlarımızın Ermənistan Respublikasının işğalından azad edilməsinə öz töhfəsini vermişdir”.

# Hikmət Hacıyev: ”Azərbaycan Ermənistanla sülh sazişinin imzalanması üçün heç bir maneə görmür”

“Ermənistan tərəfindən konkret təkliflər gözləyirik. Sülh müqaviləsi deyəndə, Ermənistan hələ də regiondan kənara baxır. Amma əslində, bu ölkənin baxmalı olduğu Cənubi Qafqaz regionudur. Üçüncü tərəfin gündəliyini bu regiona daşımaq yanlış addımdır. Ermənistan normallaşma istiqamətində danışıqları irəli aparmalıdır. Beləliklə, top Ermənistanın qapısındadır.”



AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev yerli və xarici jurnalistlərə açıqlamasında söyləyib.

Regionda kommunikasiya xətlərinin bağlı qalmasının məsuliyyətinin Ermənistanın üzərinə düşdüyünü vurğulayan Hikmət Hacıyev deyib: ”Azərbaycanın və qardaş Türkiyənin qənaəti həmişə bundan ibarət olub ki, Ermənistan ölkəmizə qarşı ərazi iddialarından əl çəkdiyi təqdirdə, qardaş ölkə onun üçün sərhədləri aça bilər. Ermənistan regionda müsbət siyasət yürüdəcəyi halda bu, mümkündür. Azərbaycan və Türkiyə paralel qaydada münasibətlərin normallaşmasını hər zaman dəstəkləyib. Ermənistan regionun potensialını dəyərləndirməyi bacarmalıdır. Azərbaycan Ermənistanla sülh sazişinin imzalanması üçün heç bir maneə görmür. Azərbaycanın tam suverenliyini və ərazi bütövlüyünü bərpa etdiyini xatırladan Prezidentin köməkçisi bildirib: ”Ermənistanın bütün qanunsuz hərbi birləşmələri ölkəmizin ərazisindən çıxarılıb və tərəfimizdən iki ölkə arasında münasibətlərin normallaşması üçün heç bir maneə görmürük. Bunun baş tutması üçün Ermənistan tərəfi anlamalıdır ki, bu sülhün kökləri Vaşinqtonda, Parisdə və Brüsseldə deyil, barış buradadır. Bunun da irəliyə aparılması və bu istiqamətdə ciddi nailiyyətlərin əldə edilməsi üçün Ermənistan bu bölgəyə baxmalı, Azərbaycanla bu istiqamətdə danışıqları davam etdirməlidir. Bizim üçün müharibə başa çatıb, regionda yeni reallıq yaranıb. Bu reallıq ədalətə, beynəlxalq hüquqa əsaslanır”.

Hikmət Hacıyev bildirib ki, dünyada hələ də, yeni, XXI ərdə müstəmləkə siyasəti yürüdən ölkələr mövcuddur. Hərdən düşünürsən ki, bu siyasət köhnə yüz ildə qalıb. Amma təəssüflər olsun ki, belə deyil.

Hikmət Hacıyev bildirib ki, Avropa İttifaqının üzvü Fransa dənizin o tayında olan 13 ölkəni müstəmləkə əsarətində saxlayır. ”Bakı konfransında bu ərazilərdən gələn insanları dinləyəndə görürsən ki, onlar XVII və XVIII əsrlərdə olduğu kimi, hələ də Fransa müstəmləkəçiliyindən əziyyət çəkdiklərini dilə gətirirlər. Qəmər adaları Fransa tərəfindən işğal edilib və bu gün onun ilhaqı siyasəti həyata keçirilir.

Bu gün Fransa Avropa ölkəsi olaraq hər kəsə dərs verməyə çalışır. Bəs o zaman bu ölkə onun müstəmləkə siyasətindən əziyyət çəkən, hüquqları pozulan insanları niyə dinləmir? Fransada islamofobiya amilləri güclənməkdədir. Bu ölkədə müsəlmanların hüquqları pozulur. Fransa bu insanlar, beynəlxalq ictimaiyyət qarşısında məsuliyyət daşımır”, - deyə Hikmət Hacıyev diqqətə çatdırıb.

Prezidentin köməkçisi bildirib ki, Azərbaycan Qoşulmama Hərəkatının sədri qismində üzv ölkələrin müstəmləkə siyasətindən əziyyət çəkməsini diqqətdə saxlayır. QH-nın təməl prinsipini isə məhz müstəmləkə siyasətinə qarşı mübarizə təşkil edir.

## Seneqal nümayəndəsi:

### ”Bakı konfransı müstəmləkəçilik siyasəti ilə mübarizədə mühüm platformadır”

**Kolonizasiya insanları tam təcrid etməklə məşğuldur. Ölkələr tabeçilik şəraitində sahib olduqları hər şeyi itiriblər. Biz hazırda bunlara qarşı birgə çalışmalıyıq.**

Düşünürəm ki, Bakı konfransı müstəmləkəçilik siyasətinə qarşı mübarizə istiqamətində mühüm platformadır.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Seneqal ”YDNA VITA” LTD təşkilatının rəhbəri olan İbrahima Diagne Qoşulmama Hərəkatının ailə, qadın komitələrinin ”Qadın hüquqlarının inkişafı və qadınların səlahiyyətləndirilməsi” mövzusunda Bakıda keçirilən konfrans çərçivəsində təşkil edilən ”Dekolonizasiya: qadınların gücləndirilməsi və inkişafı” üzrə panel müzakirələrdə səsləndirib.



O bildirib ki, dominantlığa son qoyulmalı və irqi ayrıseçkilik başa çatmalıdır.

”İnsanlar, dünya xalqları şiddətdən əziyyət çəkir, onların mənsubiyyəti, mədəniyyəti heçə sayılır. Afrikada müstəmləkəçiliyin əsasından danışarkən qeyd etməliyəm ki, burada quldarlıq sənaye halına gətirilib. İnsanlara insan kimi rəftar edilmir. Bizim vəzifəmiz odur ki, tariximizi və qurban olduğumuzu biləк, dekolonizasiya üçün mübarizə aparaq”, - deyə İbrahima Diagne vurğulayıb.

# Kölələr "ağa"lara qarşı - ÇƏRXİ-FƏLƏK

### 200 ildən sonra Qərbin "kölə xəstəliyi" yenidən baş qaldırıb

Bu gün müstəmləkəçilər - Fransa, İspaniya, Hollandiya, Belçika və ABŞ, o cümlədən Avropanın digər ibtidai-icma düşüncəsindən hələ də ayrıla bilməyən ölkələri ən ağır dövrlərini keçirirlər. Səbəb hər kəsin bildikləridir. Kölələr-qullar dünyası onları məhşər ayağına çəkmək üçün birləşiblər, hesab istəyirlər, etdikləri zülmlərin bədəlini ödətdirmək istəyirlər. Bəziləri düşünə bilər ki, əsasən Afrikanı və Cənubi Amerikanı təmsil edən, bu gün hələ də avropalıların, amerikalıların evlərində, iş yerlərində kölə kimi işlədilənlər hansı güclə, imkanla keçmiş və indiki ağalarına qarşı dura bilərlər. Əlbəttə, "ağalar" güclüdür, topu, topxanası var. Amma zaman o zaman deyil, hər şey dəyişib. Dəyişməyən bir nəsnə var, o da kölə, yaxud qulların ürəyidir.

Afrikalılar və Afrika mənşəli insanlar əcdadlarının qul kimi götürüldüyü ölkələrin hökumətlərindən təzminat almalıdırlar. Bunu Qana prezidenti Nana Akufo-Addo tarixi ədalətsizlik məsələlərinə həsr olunmuş konfransda deyib. Bu təşəbbüs çoxdan tərəfdarları birləşdirdi, lakin son vaxtlar Afrika və Karib hövzəsi ölkələrinin hakimiyyət nümayəndələri bu ideya ilə maraqlanmağa başlayıblar. "Heç bir pul transatlantik qul ticarətinin vurduğu zərəri bərpa edə bilməz" deyə Akufo-Addo bildirib: "Bu, dünyanın həll etməli olduğu bir məsələdir və artıq göz ardı edilə bilməz".



Qanada keçiriləcək konfrans zamanı iştirakçıların kompensasiya ədalətliliyini təmin etmək üçün fəaliyyət planı hazırlaması gözlənilir ki, bu da strategiyanın həyata keçirilməsinə nəzarət etmək üçün Afrika komitəsinin yaradılmasını, eləcə də dünya üzrə diaspor icmalarının nümayəndələri ilə işin artırılmasını əhatə edəcək. "Bütün köləlik dövrü iqtisadi, mədəni, psixoloji tərəqqimizin boğulması demək idi. Ailələrin ayrılması ilə bağlı çoxlu hekayələr var. Bu faciələrin nəticələrini ölçmək mümkün deyil, lakin onlar tanınmalıdır", deyə Qana Prezidenti təkid edir.

### Köləlik TARİXİ...

XV əsrdən XIX əsrə qədər ən azı 12,5 milyon afrikalı müstəmləkə ölkələrinə zorla qaçırılıb və sonra kölə kimi satılıb. Bu dəniz səyahətlərindən sağ çıxmağı bacaranlar Amerika, Braziliya və Karib dənizindəki plantasiyalarda işlədilib. Sentyabr ayında BMT hesabat təqdim edib ki, ölkələr Afrika əsilli insanlara təzminat variantı kimi köləlik və müstəmləkəçilik dövrü üçün ödəniş etməyi nəzərdən keçirə bilər. "İnsan Hüquqları üzrə Ali Komissarlığın sözçüsü Ravina Şamdasani dövlətləri təzminat ədaləti istiqamətində qəti addımlar atmağa çağırıb. Bu tədbirlərə işlərin əsl vəziyyətini üzə çıxarmaq, ictimaiyyətdən üzr istəmək və keçmiş səhvlərin tanınması, xatirə yerlərinin yaradılması, maarifləndirici proqramlar, kompensasiyalar, tibbi və psixoloji reabilitasiya və oxşar hadisələrin baş verməsinin qarşısını alacaq təminatların təmin edilməsi daxildir", - deyə məlumatda bildirilir.

Qeyd edək ki, köləlik və qul ticarəti bəşər tarixində ən pis insan hüquqları pozuntularından biridir. Transatlantik qul ticarəti müddəti (400 il), miqyası (yolda ölənləri nəzərə almasaq, təqribən 17 milyon nəfər) və o dövrün qanunları ilə qanuniləşdirilməsinə görə köləlik tarixində müstəsna bir hadisədir. Transatlantik qul ticarəti tarixdə ən böyük deportasiya aktı sayılır. Onu çox vaxt qloballaşmanın ilk nümunəsi adlandırırlar. XVI əsrdən XIX əsrə qədər davam edən qul ticarəti bir neçə bölgəni və qitələri - Afrika, Şimali və Cənubi Amerika, Avropa və Karib hövzəsini əhatə etdi və milyonlarla Afrikalının avropalılar tərəfindən satışı və istismarı ilə məşğul olub.



### Qul ticarəti

Silah, içki və at kimi mallarla yüklənmiş gəmilər Avropa limanlarından Qərbi Afrika sahillərinə üz tuturdu və burada mallar əsarət altına alınmış afrikalılarla dəyişdirilirdi. Qullar ya əsir düşmüş qəbilələrin üzvləri, ya da qulların tutulması və satışı üzərində qurulan inkişaf edən yerli biznesin qurbanları idi. Afrikalı qullarla həddən artıq yüklənmiş gəmilər daha sonra okeanın o tayındakı "orta keçidi" ilə Karib dənizi və Cənubi Amerikadakı Amerika və Avropa koloniyalarına yola salınırdı. Mümkün qədər çox qul yerləşdirmək üçün gəmilər teztez üçüncü dərəcəli sərnişinlərin istifadə etdiyi əsas imkanları belə aradan qaldırırdılar. Təxminlərə görə, hər altı quldan biri dar və antisanitariya səbəbindən səyahət zamanı ölürdü. Xəstəlik baş verən və ya üsyanla üzləşən gəmilərdə itkilər yüzdə əlli qədər yüksək ola bilirdi. Sağ qalan qullar satılır, bundan sonra gəmilər şəkər, tütün, pambıq, rom və qəhvə kimi qul əməyi ilə istehsal olunan malların yükləri ilə Avropaya qayıdırdı.

1619-cu il avqustun sonunda ingilis "pirat" gəmisi White Lion Chesapeake körfəzindəki Cape Comfort-da yanaşır. Gəminin göyərtəsində, sağ qalan sənədlərə görə, portuqaliyalı qul tacirlərindən quldurlar tərəfindən əsir götürülən 20-dən çox afrikalı olur. Portuqallar qulları Afrikadan indiki Meksikanın limanına gətirirdilər. Ağ Aslan əsirləri, tarixdə müstəmləkəçi Virciniya sahillərinə gələn ilk afrikalılar anqolalılar idi. "Pirat"lar əsirləri ərzaq və sənaye malları ilə dəyişdirirdilər. 400 il əvvəl ingilisdilli Amerikanın tarixində bütün ölkənin taleyinə bir dəfədən çox təsir edəcək mühüm hadisə baş verdi - burada köləlik yarandı. Ölkədə quldarlıq institutu iki əsrdən çoxdur mövcud oldu.

Emori Universitetinin tədqiqatçılarına görə, 1525-ci ildən 1866-cı ilə qədər Afrikadan Amerikaya 12,5 milyon insan gətirilib. Onların heç də hamısı dəhşətli şəraitdə uzun səyahətin çətinliklərinə dözməyib - təxminən 10,7 milyon kişi, qadın və uşaq Amerika sahillərinə sağ-salamat çatıb. Afrikalıların böyük əksəriyyətinin səfəri Braziliya və Karib hövzəsində sona çatdı. ABŞ-a cəmi 400 minə yaxın qul gətirilib.

Əvvəlcə afrikalıların Şimali Amerika koloniyalarında aydın hüquqi statusu yox idi - formal olaraq onlar nə müqaviləli qulluqçular, nə də qullar idilər. Bununla belə, artıq 1641-ci ildə Massaçusets hakimiyyəti ilk dəfə köləliyi qanuniləşdirdi. 1662-ci ildə Virciniya ştatında qanun qəbul edildi ki, qulların uşaqları bu statusu valideynlərindən miras alaraq avtomatik olaraq qul olurlar. Nəhayət, 19-cu əsrin ortalarında ABŞ-da qulların sayı 4 milyon nəfərə çatdı.

### Üçbucaqlı ticarət

Köləlik Amerikada "üçbucaqlı ticarət" adlanan - Afrika, Avropa və Yeni Dünya arasında baş verən sözdə transatlantik ticarət mübadiləsi sayəsində yarandı. Avropalılar Afrikaya tekstil, silah və metallar gətirir, onları satır və ya əsirlərə dəyişdirirdilər, daha sonra onlar Qərbi Afrika limanlarından Amerikaya "canlı mal" kimi göndərilirdilər. Bir çox qullar Amerika plantasiyalarında işləyir, Avropada həmişə tələbat olan qiymətli mallar - şəkər qamışı, düyü, pambıq və tütün yetişdirirdilər.

Bugünkü afro-amerikalıların böyük əksəriyyəti Anqola, Qana və Seneqaldan olan mühacirlərin nəslindəndir. Anqolalılar hamıdan çox idi: 5 milyon, Yeni Dünyaya gətirilən bütün qulların ümumi sayının demək olar ki, yarısı. Şimali Amerikaya gətirilən qullar arasında təxminən dörddə biri Anqoladan gəlib.

Anqolanın paytaxtı Luanda yaxınlığından Atlantik okeanına tökülən Kvanza çayı o dövrlərdə mühüm ticarət yolu idi. Onun sahillərin-



də yaşayan insanlar daha çox əsir götürülür və qul olurlar, daha çox əsir düşənlər öz həmvətənləri olub, sonra isə əsirləri avropalı qul tacirlərinə satırlar. Tutulan şəxslər limana aparılıb və satılana qədər həbsdə saxlanılıb. Gələcək qullar daha sonra gəmilərdə Amerikaya göndərildi.

### Fayda - və başqa heç nə

Afrikadan gələn ucuz (əslində pulsuz) işçi qüvvəsi 1783-cü ildə Britaniya İmperiyasından müstəqilliyini elan edən Amerika koloniyaları üçün sağ qalmağın açarı oldu. Norfolk Universitetinin tarixçisi Cassandra Newbye Alexander yazır: "Köləlik Amerika iqtisadiyyatında çox əhəmiyyətli və mühüm amil idi: o, bütün digər iqtisadi sektorların birləşdiyindən daha çox qiymətləndirildi". Məhz bu səbəbdən cəmiyyətin yuxarı təbəqələri uzun müddət və inadla quldarlığın ləğvinə müqavimət göstərdilər.

1860-cı ildə, vətəndaş müharibəsi başlamazdan əvvəl, təxminən 4 milyon Amerika qulunun dəyəri təxminən 3,5 milyard dollar idi - qullar Amerika iqtisadiyyatının ən böyük maliyyə "aktivi" idi: onlar Amerikanın bütün digər istehsalat və dəmir yolu sənayesindən daha dəyərli idilər. Tarixçi Ceyms Makferson yazırdı: "Virciniya Qul Məcəlləsi qullara daşınmaz əmlak kimi yanaşırdı. Sahibinin, sahibinə itaət etməkdən boyun qaçırdığı halda, qul öldürmək hüququ var idi".

Federal hökumət köləlik məsələsini dövlət orqanlarının ixtiyarına buraxdı - onlar bu institutu ya qanuniləşdirə, ya da ləğv edə bilərdilər. Cənub ştatlarında qulların çoxu kənd təsərrüfatında, ABŞ-ın şimalında isə qullar ev qulluqçuları və bacarıqlı işçilər kimi xidmət edirdilər. Vətəndaş müharibəsindən əvvəl Şimalda quldarlıq tədricən ləğv edilsə də, sənaye dövlətlərinin sakinləri köləliyin iqtisadi faydalarından istifadə edirdilər. Məsələn, təkcə Yeni İngiltərənin kiçik Rhode Island əyalətinə 1705-ci ildən 1805-ci ilə qədər 900 gəmidə 100 mindən çox afrikalı qul gətirildi.

### Köləlikdən qurtuluş

Virciniya XVII əsrin əvvəllərində qulların gətirildiyi ilk İngilis koloniyası oldu. Bununla belə, köləliyin "sonunun başlanğıcı" da Virciniyada başladı. 1861-ci ilin mayında, quldarlıq edən Cənubun 11 əyalətini sənaye Şimalına qarşı qoyan vətəndaş müharibəsinin başlamasından bir ay sonra, Konfederasiya Ordusuna aid üç Virciniyalı qul Hampton limanındakı hərbi qala olan Fort Monroya qaçdı. Qullar Federasiya ordusundan onlara sığınacaq verməsini istədi. Baş Komandan General Benjamin Franklin Butler qaçaq qulları Federasiya qüvvələrinin "müharibə qənimətləri" elan etdi - ilk baxışdan qeyri-insani termin, ona qaçaqları saxlamağa və onlara kömək etməyə imkan verdi.

Beləliklə, müharibə zamanı cənubdan Fort Monroya qaçmağı bacaran minlərlə afroamerikalı azadlıq əldə etdi. Məhz bu hadisə sonradan köləliyin ləğvi üçün zəmin yaratdı. 1863-cü ilin əvvəlində prezident Abraham Linkoln bütün ölkədə köləliyi ləğv edən fərman olan Emancipation Proclamation-ı verdi. Konfederasiya əyalətlərindəki bütün "qul kimi saxlanılan şəxslər" azad insanlar elan edildi. Köləliyin son ləğvi Konstitusiyaya 13 və 14-cü Düzəlişlərin qəbulu ilə baş verdi. 1866-cı ildə qəbul edilən 14-cü düzəliş bütün keçmiş qullara ABŞ vətəndaşlığı verdi.

2011-ci ilin sentyabrında Hamptondakı qala müdafiə obyekti kimi fəaliyyətini dayandırdı - Pentaqon pula qənaət etmək üçün qalanı balansından çıxardı. İki ay sonra Keniyalı atanın oğlu və Avropa-Amerikalı ananın oğlu olan prezident Barak Obama Fort Monronu Milli Tarixi Orientir kimi təyin etdi.

### Müasir Amerika və irqçilik

Köləlik Amerikada 1866-cı ildə ləğv edilsə də bu gün amerikalıların əksəriyyəti buna inanmır, bu siyasətin hələ də davam etdiyini deyirlər. Yanvarın hər üçüncü bazar ertəsi günü amerikalılar Martin Lüter Kinqin xatirəsini yad edir. Bəs bu şəxs kimdir? Dr. Kinq Alabama ştatının cənubundan baptist keşiş və ABŞ-da irqi bərabərsizliyə qarşı mübarizədə lider olub. Yanvarın 15-də onun 94 yaşını qeyd ediləcəkdi. Amma...

1960-cı illərin sonlarında baş verən sarsıntılardan sonra yüz minlərlə amerikalı irqi azlıqlar və qadınlar da daxil olmaqla, siyasi cəhətdən az təmsil olunan qruplar üçün vətəndaş hüquqlarının müdafiəsi tələbi ilə küçələrə çıxıb. 1865-ci ildə ABŞ vətəndaş müharibəsi başa çatmış və Konstitusiyaya köləliyi qadağan edən 13-cü düzəliş ratifikasiyası edilmişdi. Afrika əsilli Amerika əhalisinin əksəriyyəti Jim Krov adlanan qanunlara tabe idi. Bunlar irqi açıq ayrı-seçkiliyi qanuniləşdirən dövlət və yerli qanunlar idi və sonralar hökumət orqanları və mülki qruplar tərəfindən zorakılıqla tətbiq edilirdi.

Bu virtual aparteid sistemini dəyişdirməyə çalışan afroamerikalılar qeyri-mütənasib zorakılıqla qarşılandılar ki, bu da çox vaxt fəalların ölümü ilə nəticələnirdi. Bu atmosferdə Mahatma Qandinin qeyri-zorakı etiraz doktrinasına sadiq qalan Dr. Kinq öz ardıcıllarının kütləvi boykot, oturaq aksiyalar, dinc yürüşlər və digər qeyri-zorakı vətəndaş itaətsizlik aktlarının təşkilinə rəhbərlik edirdi. Etirazçılara qarşı tez-tez ifrat qısas ölkənin qalan hissəsinə təcili dəyişikliyə ehtiyac olduğunu nümayiş etdirmişdi.

Dr. Kinq və Mülki Hüquqlar Hərəkatının qanun çərçivəsində daha ədalətli rəftar üçün illərdir davam etdirdiyi təkan 1964-cü il Mülki Hüquqlar Aktının qəbulu ilə nəticələnmişdi və bu qanun ictimai yerlərdə seqreqasiyanı, işə qəbul edilərkən rəng, din, cins və ya milli mənşə ayrı-seçkiliyini qadağan etmişdi. Doktor Kinqin əməyinin bəhrələrini görməyə vaxtı olmadı. O, 4 aprel 1968-ci ildə 39 yaşında qətlə yetirildi.

Bu gün ayrı-seçkilik təhqir və qanuni olaraq cinayət hesab edilir. Yenə də, amma... Müstəmləkəçilik amerikalıları, avropalıların qanındadır...

***V.VƏLİYEV***

# İslam dünyasının paytaxtı Şuşamız

## Dövlət başçısının Sərəncamına əsasən, Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı tədbirlər planı hazırlanacaq

Bu gün işğaldan azad olunan Şuşamız dirçəlir. Alınmaz qala, Qarabağın tacı, mədəniyyətimizin beşiyi Şuşa Azərbaycanın tarixi-mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biridir. Şuşanı 28 ildən çox əsarətdə saxlayan erməni işğalçıları onun simasını dəyişməyə cəhd göstərib, xalqımızın tarixi-mədəni irsinin məhv edilməsi siyasətini həyata keçirib. Buna baxmayaraq, Şuşa sınmayıb, əyilməyib. Dövlətimizin başçısının qeyd etdiyi kimi, mənfur düşmən nə qədər çalışsa da, Şuşanın simasını dəyişdirə bilməyib. Qədim tarixi olan Şuşa şəhəri tarixən Azərbaycanın ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biri olmuşdur. XVIII əsrin ikinci yarısında Azərbaycanın tarixi, mədəni və strateji əhəmiyyətə malik şəhəri sayılan Şuşa özünün xalçası, ipəyi, parçası və çini qabları ilə dünya bazarları miqyasına çıxmış və bununla da böyük şöhrət qazanmışdı. Xalq əfsanəsinə görə, isə bu yerlərin havası büllur kimi saf və şəfalı olduğu üçün onu "Şuşa" adlandırmışlar. Şuşada "Bazarbaşı" deyilən yerdən "Şeytanbazara" qədər uzanan üstüörtülü ticarət mərkəzi və şəhərin əsas küçəsi "Rastabazar" adlandırılırdı. Orta əsr Şərq üslubunda zövqlə tikilən bu bazar həm də şəhərə xüsusi yaraşıq verirdi. Şuşanın ticarət mərkəzinin bənzərsiz görkəmi onun magistralına bitişik iri bazar meydanı ilə tamamlanırdı. Şəhərdə 17 məhəllə var idi ki, onların hər birinin məscidi, bulağı və hamamı mövcud idi.

Sovet dövründə Ümummilli Lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi zamanda (1969-1982) Qarabağa çox böyük diqqət və qayğı göstərmiş, eləcə də erməni iddiaları hər zaman iflasa uğramışdı. Ulu Öndər Heydər Əliyevin fəaliyyətinin mühüm əhəmiyyət daşıyan istiqamətlərindən biri məhz Qarabağda milli ruhun oyadılması olmuşdur. Ümummilli Lider Heydər Əliyev bu istiqamətdə sistemli və məqsədyönlü şəkildə tədbirlərin həyata keçirilməsinə xüsusi diqqət ayırırdı. Qarabağ tarixini, mədəniyyətini, incəsənətini, iqtisadi inkişafını mükəmməl bilən Ulu Öndər Heydər Əliyev bu məsələyə çox həssaslıqla yanaşmışdır. Ümummilli Lider Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə Şuşa şəhərinin inkişaf etdirilməsi məqsədilə 1970-ci illərin ikinci yarısında bir neçə xüsusi qərar qəbul edildi. Həmin qərarlara uyğun olaraq şəhərin keçmişdə tikilmiş binaları, tarixi abidələri bərpa edildi, yeni çoxmərtəbəli yaşayış binaları, böyük mehmanxana kompleksləri, ayrı-ayrı inzibati binalar tikildi. Bununla yanaşı, Şuşanın statusu qaldırılaraq ümumittifaq səviyyəli kurort şəhərinə çevrildi. 1977-ci ildə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü ilə "Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında" qərar qəbul edildi. Həmin qərar nəticəsində Şuşada abidələrin qorunması, görkəmli mədəniyyət və incəsənət xadimlərinin xatirələrinin əbədiləşdirilməsi istiqamətində əhəmiyyətli addımlar atıldı.

Ermənilərin Azərbaycana qarşı başladığı hərbi təcavüz nəticəsində 1992-ci il mayın 8-də Şuşa şəhəri işğal edildi və şəhərdə xalqımızın tarixi-mədəni irsinin məhv edilməsi siyasəti həyata keçirildi. Şuşanın işğalı nəticəsində azərbaycanlıların tarixi izlərini silmək məqsədilə vandallar 600 yaxın tarixi memarlıq abidəsini, o cümlədən Pənahəli xanın sarayını, Yuxarı Gövhər ağa məscidini, Aşağı Gövhər ağa məscidi, Xurşidbanu Natəvanın evini, Molla Pənah Vaqifin məqbərəsini yerlə-yeksan etmiş, 7 məktəbəqədər uşaq müəssisəsini, 22 ümumtəhsil məktəbini, mədəni-maarif, kənd təsərrüfatı texnikumlarını, orta ixtisas musiqi məktəbini, 8 mədəniyyət evinin, 22 klubu, 31 kitabxananı, 2 kinoteatrı, 8 muzeyi, o cümlədən Şuşa Tarix Muzeyi, Azərbaycan Xalça Muzeyinin filialı və xalq tətbiqi sənəti muzeyi, Qarabağ dövlət tarix muzeyi, turist bazasını, Qafqazda yeganə Şərq musiqi alətləri fabrikini dağıtmış, buradakı nadir sənət incilərini talamış və məhv ediblər. Şəhərin tarixi muzeyinin 5 minədək əşyası, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət muzeyi Şuşa filialı, Dövlət Qarabağ Tarixi muzeyinin 1000-dək əşyası, peşəkar Azərbaycan musiqisinin banisi, bəstəkar Üzeyir Hacıbəyovun, müğənni Bülbülün, musiqiçi və rəssam Mir Möhsün Nəvvabın xatirə muzeylərinin fondları qarət edilib.

### "ŞUŞASIZ QARABAĞ, QARABAĞSIZ İSƏ AZƏRBAYCAN YOXDUR"

Şuşanın abidələr şəhəri olduğunu söyləyən Ümummilli Lider Heydər Əliyev onun Azərbaycan üçün müstəsna əhəmiyyətini yüksək qiymətləndirərək deyirdi: "Şuşasız Qarabağ, Qarabağsız isə Azərbaycan yoxdur". Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirərək Azərbaycanın milli və dövlətçilik maraqlarını daim üstün tutan Prezident, Ali Baş Komandan İlham Əliyev 2020-ci ilin noyabrın 8-də Şəhidlər xiyabanından xalqa etdiyi müraciətdə Şuşa şəhərinin azad edilməsi müjdəsini verdi. Ordumuzun qətiyyətli mübarizəsi ilə tarixi ədalət bərpa edildi. 2020-ci il noyabrın 8-də Şuşa şəhəri işğaldan azad olundu. Qısa bir zamanda şəhərə, onun tarixi-mədəni irsinə və təbiətinə vurulmuş zərərin təxirəsalınmadan inventarizasiyası aparılmış, bərpa işlərinə başlanılmışdır. Dövlət başçısının Sərəncamı ilə Şuşa şəhərinin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması, eləcə də Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği məqsədilə Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edilib.

Bu gün Şuşamız işğaldan azad olunan digər ərazilərimiz kimi, yenidən qurulur. Cənab Prezident Şuşaya hər səfəri tarixi hadisələrlə yadda qalır. Şəhərdə inşa edilən yeni yaşayış kompleksinin tikinti işləri davam edir. Qədim mədəniyyət paytaxtımızda yaşayış kompleksinin yaradılması otuz ilə yaxın müddətdə doğma yurd-yuvalarına qovuşmaq həsrəti ilə yaşayan şuşalıların bu arzularına çatacağı günün lap yaxında olduğunu göstərir. Şuşada vaxtilə keçirilən Vaqif Poeziya Günləri və "Xarı bülbül" festivalı bərpa olundu. Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün ermənilər tərəfindən güllələnmiş büstləri Şuşada yenidən əvvəlki yerlərinə qoyuldu.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin müdrik siyasəti nəticəsində torpaqlarımız işğaldan azad olundu və bu gün yeni bir yüksəliş dövrü başlayıb. Şuşa şəhərində, eləcə də işğaldan azad olunan bütün ərazilərdə olan bir çox tarixi-dini abidələrimiz bərpa olunur. Azərbaycanın mədəni paytaxtı və bütün Qafqazın incisi hesab olunan Şuşa şəhərində də infrastruktur layihələr icra olunur.Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən və dövlət başçısının bilavasitə nəzarəti altında qədim tarixi və memarlıq üslubu qorunub saxlanılmaqla Şuşa şəhərinin, tarixi və dini abidələrin, muzeylərin planlı şəkildə bərpa olunması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Qısa zamanda həyata keçiriləcək yenidənqurma işləri nəticəsində Şuşa dünyanın ən gözəl şəhərləri siyahısında öz layiqli yerini tutacaqdır.

### BÜTÜN DÜNYANIN MƏDƏNİYYƏT PAYTAXTI ELAN OLUNMAĞA LAYİQ ŞUŞAMIZ

Bildiyimiz kimi, Şuşa şəhəri 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" seçilmişdi. Əlbəttə ki, bu, heç də təsadüfi deyil. Əsrarəngiz, füsunkar təbiəti, nadir tarixi-memarlıq abidələri, zəngin irsi bu şəhərin "Türk dünyasının mədəniyyət paytaxtı" elan olunmasında əsas faktorlardır. Bu barədə qərar Beynəlxalq Türk Mədəniyyəti Təşkilatına (TÜRKSOY) üzv ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurasının Türkiyənin Bursa şəhərində keçirilən iclasında qəbul olunmuşdu. TÜRKSOY-un təşəbbüsü ilə türkdilli dövlət, yaxud regionların şəhərlərindən hər il biri Türk dünyasının mədəniyyət mərkəzi seçilir. Türk dünyasının mədəniyyət paytaxtı seçilmiş şəhərlərdə il ərzində Türk dünyasının mədəni tədbirləri keçirilir. Xatırladaq ki, TÜRKSOY-un üzv-şəhərlərindən hər il birinin illik olaraq Türk dünyasının mədəniyyət paytaxtı elan edilməsi barədə qərar 2010-cu ildə türkdilli ölkə başçılarının X sammitində qəbul olunmuşdur. Türk dünyasının birinci mədəniyyət paytaxtı 2012-ci ildə TÜRKSOY şurası tərəfindən Qazaxıstan paytaxtı Astana seçilmişdir. Daha sonra Əskişəhər, Kazan, Marı və Türkistan şəhərləri də növbə ilə Türk dünyasının mədəniyyət paytaxtları seçilib. 2016-cı il üçün türk dünyasının mədəniyyət paytaxtı seçilən Şəki şəhəri əsrlər boyu Böyük İpək Yolu üzərində yerləşən mühüm sənət və ticarət mərkəzi olub. Bu gün Şəki orta əsr şəhərlərinə məxsus olan şəhərsalma mədəniyyətini özündə qoruyub saxlayan bənzərsiz məkandır. Karvansaraylar, məscidlər, minarələr, evlər, qala divarları, körpülər şəhərin qədim memarlıq üslubundan xəbər verir. Hər il keçirilən beynəlxalq festivallar, tədbirlər xalqımıza xas olan zəngin tarixi-mədəni irsi təbliğ etməyə, bölgənin turizm potensialını genişləndirməyə imkan yaradır.

Təbii ki, Qarabağın tacı olan Şuşanın "Türk dünyasının mədəniyyət paytaxtı" seçilməsi böyük həqiqətlərə əsaslanır. Şuşa şəhəri nəinki Azərbaycanın, türk dünyasının, eləcə də bütün dünyanın mədəniyyət payxatı elan olunmağa layiqdir. Milli-mənəvi dəyərlərinin beşiyi kimi tanınan Şuşa əsrlərin sınağından çıxaraq yüzilliklərin daş yaddaşında tarix yazıb. Bu tarix Şuşa haqqında olan bütün məlumatları özündə əks etdirib. Zəngin və şanlı tarixi keçmişə malik olan Şuşa ətrafındakı qədim yaşayış yerləri, o cümlədən, məşhur Cıdır düzündəki Şuşa mağarası bu ərazinin Azərbaycanda ən qədim insan düşərgələrindən biri olduğunu sübut edir. Bu şəhərin tarixinə nəzər salsaq görərik ki, 1747-ci ildə Nadir şah Əfşarın ölümündən sonra keçmiş Qarabağ bəylərbəyliyinin ərazisində iki müstəqil xanlıq - Gəncə və Qarabağ xanlıqları yarandı. Qarabağ xanlığının əsasının qoyulması və Şuşa şəhərinin onun paytaxtına çevrilməsi Pənahəli xanın (1748-1763) adı ilə bağlıdır. Tarixi mənbələrdə göstərilir ki, Şuşa qalası uzun illər boyu Azərbaycanın Qarabağ xanlığının paytaxtı olmuşdur. Şuşa qalasının salınması 1750-1751-ci illərdən hesab edilir. Tarixi mənbələrə görə, 1750-ci ildə hündür, sıldırım dağ üstündə qalanın inşasına başlandı və 1756-1757-ci illərdə tikilib başa çatdırıldı. Qarabağ xanı Pənahəli xan Şuşanı paytaxt elan edib oranı möhkəmləndirmiş, Qala-şəhərə çevirmişdi. Şəhər bir müddət Pənahəli xanın şərəfinə "Pənahabad", sonradan isə "Şuşa qalası" və "Şuşa" adlandırılmışdır. "Türk dünyasının mədəniyyət paytaxtı" seçilən Şuşa Azərbaycanın mədəniyyət beşiyidir. Şuşada dünyaya göz açan xalqımızın mənəviyyatı və mədəniyyəti üçün özlərini fəda edən Azərbaycanın mədəniyyət və incəsənətinə töhfə vermiş mədəniyyət və incəsənət tarixinə ədəbi iz salmış Əbdürrəhim bəy Haqverdiyev, Üzeyir bəy Hacıbəyli, Nəcəf bəy Vəzirov, Zülfüqar Hacıbəyli, Şəmsi Bədəlbəyli, Barat Şəkinskaya, Əfrasiyab Bədəlbəyli, Soltan Hacıbəyli, Bülbül, Niyazi, Mehdi Məmmədov, Süleyman Ələsgərov, Əşrəf Abbasov, Məhərrəm Əlizadə və onlarla belə sənətkarların yaratdıqları sənət inciləri tarixi nümunələrdir.

Ardı Səh. 6



# İslam dünyasının paytaxtı Şuşamız

## Dövlət başçısının Sərəncamına əsasən, Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı tədbirlər planı hazırlanacaq

**Əvvəli Səh. 5**

### ”İSLAM DÜNYASININ MƏDƏNİYYƏT PAYTAXTI”

Dövlət başçısı Azərbaycan Respublikasında 2022-ci ilin ”Şuşa İli” elan edilməsi haqqında Sərəncamı bir daha ölkəmizdə milli-mədəni və tarixi irsimizin qorunması və təbliğ olunmasına dövlət tərəfindən hər zaman xüsusi diqqət və qayğının göstərildiyini nümayiş etdirmiş oldu. Sərəncam həm də 2022-ci ildə Şuşada və işğaldan azad olunmuş digər ərazilərimizdə aparılan quruculuq işlərinin daha böyük vüsət almasına səbəb oldu. Bu gün Şuşa dağları həsrətlə yaşadığı, acıdığı musiqimizə, sənət dünyamıza qovuşdu. Toybüsatlı Şuşamızda yenidən ”Xarı Bülbül” Beynəlxalq musiqi festivalı keçirildi. Artıq hər kəs rahatlığa qovuşub. Dini-mədəniyyət abidələrimiz təmir bərpa olunur. Üzeyirin, Natəvanın, Bülbülün güllələnmiş heykəlləri də Şuşada rahat nəfəs alır. Uzun illər R.Mustafayev adına Azərbaycan Dövlət Muzeyində saxlanılan heykəllər rahatlıq tapıb. Şuşa, ”Cıdır düzü”, ”Isa bulağı” həsrətində olduğu sakinlərinə, Azərbaycan musiqisinə qovuşub.

Dövlət başçısının Şuşa şəhərinin 2024-cü il üçün ”İslam dünyasının mədəniyyət paytaxtı” elan edilməsi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalayıb. Bildiyimiz kimi, 2023-cü il sentyabrın 25-də Qətər Dövlətinin paytaxtı Doha şəhərində keçirilən İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri 2024-cü il üçün ”İslam dünyasının mədəniyyət paytaxtı” elan edilmişdir. Bu qərar Azərbaycanın tarixi-mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biri olub. İslam mədəniyyətinin zənginliklərini dolğun təzahür etdirən Şuşaya xüsusi ehtiramın ifadəsidir və İslam dünyasının həmrəyliyinin yeni rəmzinə çevrilməklə qarşılıqlı əməkdaşlıq münasibətlərinin daha da genişləndirilməsində özünəməxsus rol oynayacaqdır. Sərəncama əsasən, Şuşa şəhərinin 2024-cü il üçün ”İslam dünyasının mədəniyyət paytaxtı” elan edilməsi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçiriləcəkdir

Görüləcək işlər çoxdur. Qısa bir zamanda Şuşa cənnəti xatırladacaq bir məkana çevriləcək. ”İslam dünyasının mədəniyyət paytaxtı” çərçivəsində Şuşamızda keçiriləcək tədbirlərdə iştirakçı olacaq hər bir kəs bu möcüzələr diyarımla xoş təəssüratlarla ayrılacaqlar.

***Zümrüd BAYRAMOVA***

# ”Qarşıda bizi daha böyük hədəflər, məqsədlər gözləyir”

**ŞƏRH EDİLDİ**

”Bu gün Azərbaycan siyasi palitrasında milli siyasi iradəni təmsil edən Yeni Azərbaycan Partiyasının (YAP) yaranmasından 31 il ötür. Yeni Azərbaycan Partiyası mürəkkəb siyasi situasiyanın daxili məntiqindən, zamanın təxirəsalınmaz tələbindən irəli gələrək Azərbaycan xalqının arzu və istəklərinin ifadəçisi kimi yaranan partiyadır. Azərbaycan tarixinin son dərəcə ağır və keşməkeşli günlərində, ölkənin ciddi sınaqlara məruz qaldığı bir dövrdə ziyalıların təşəbbüsü və fəal iştirakı ilə yaranıb. Xalqımızın və dövlətçiliyimizin taleyini düşünən insanlar ölkəni böhrandan çıxara biləcək yeni bir partiya yaratmaq təşəbbüsü ilə çıxış etdilər və bu məqsədlə xalqın sınanmış lideri, müdrik oğlu Heydər Əliyevin ətrafında birləşdilər. 91 nəfər Azərbaycan ziyalısının imzası ilə Naxçıvana, Heydər Əliyevə müraciət göndərildi. 1992-ci il oktyabrın 16-da 91 nəfər ziyalının imzaladığı müraciətdə ”Dövlət quruculuğundakı çoxillik təcrübənizə əsaslanaraq Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütlələrini özündə birləşdirə biləcək böyük, güclü, nüfuzlu və işlək partiya yarada bilərsiniz”, deyilirdi. Bu, Azərbaycanın ən yeni tarixinə ”91-lər”in müraciəti kimi daxil olmuş sənəd idi və əslində, bütün xalqın arzu və istəklərinin ifadəsi idi”. Bunu SİA-ya açıqlamasında Milli Məclisin deputatаı Aydın Hüseynov deyib.

Deputat qeyd edib ki, Azərbaycanın görkəmli ziyalıları, tanınmış insanları və nüfuzlu şəxsiyyətlərinin imzaladıqları bu müraciətdə Heydər Əliyevdən yeni yaradılacaq siyasi partiyaya rəhbərlik etmək xahiş olunurdu: ”Ulu Öndərin çox cəsarətli addımları nəticəsində dağıdıcı proseslərin qarşısı alındı. Belə bir məqamda, Azərbaycan xalqının iztirablarını, ölkənin iflasa və məhvə sürüklənməsi təhlükəsini, Azərbaycan ziyalılarının ürək ağrısı və nigarançılığını, həmçinin, bununla bağlı bir qrup görkəmli şəxslərin müraciətini nəzərə alan ulu öndər Heydər Əliyev onlara yazdığı 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi. 550 nəfərdən ibarət təşəbbüs qrupu Naxçıvana gedərək partiyanın təsis konfransını orada keçirməyə nail oldular.

Konfransda Heydər Əliyev yekdilliklə partiyanın sədri seçildi. Habelə, partiyanın Siyasi Şurası, İdarə Heyəti və sədrin müavinləri seçildi. Beləliklə, müstəqil Azərbaycanın tarixində öz üzərinə böyük tarixi missiya götürən Yeni Azərbaycan Partiyası yarandı. Yeni Azərbaycan Partiyasının yaradılması Ulu öndər Heydər Əliyevin siyasi irsinin təcəssümü kimi, həyata vəsiqə aldı. Yeni Azərbaycan Partiyasının üzvləri, Ulu öndərin siyasi xəttinə sadiq qalaraq onun siyasətini müasir dünyada aparmaq üçün bütün lazımi səyləri edir. Bu siyasətə sadiqlik, cəmiyyətimizdə yaşanan həmrəylikdən və Ulu Öndərə olan ümumxalq sevgisindən xəbər verir. Heydər Əliyevin xalqın təkidli çağırışı ilə yenidən hakimiyyətə qayıdışı onun xilaskarlıq missiyasının davamı demək idi. Bu, həm də onun rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının siyasi hakimiyyətə gəlişi və cəmiyyətin aparıcı qüvvəsinə-iqtidar partiyasına çevrilməsinə zəmin yaratmış oldu. 1993-cü ilin oktyabr ayının 3-də YAP-ın sədri Heydər Əliyevin prezident seçilməsi ilə partiyanın həyatında yeni dövrün əsası qoyulmuşdur. Yeni Azərbaycan Partiyası xalqın partiyasıdır. Bu gün bu partiya ölkəmizdə həyata keçirilən hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğu, demokratik inkişaf prosesində yaxından iştirak edir.

Ulu Öndər vaxtilə demişdir: ”Azərbaycan dünyaya Günəş kimi doğacaq”. Həqiqətən də, bu gün ölkəmiz Prezident İlham Əliyevin və birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevanın simasında dünyaya bir Günəş kimi parlayır. 2003-cü ilin prezident seçkiləri ərəfəsində Ümummilli Liderimiz Heydər Əliyevin xalqa müraciəti zamanı ifadə etdiyi müdrik kəlamı reallıqda tam təsdiqini tapdı. Ali Baş Komandanımız, Prezident İlham Əliyevin rəhbərliyi ilə apardığımız ”Dəmir yumruq” əməliyyatı nəticəsində 30 il işğal altında qalan torpaqlarımız azadlığa qovuşdu, ərazi bütövlüyümüz bərpa olundu. Qarşıda isə bizi daha böyük hədəflər, məqsədlər gözləyir”.

***Səbinə Hüseynli***



**Elçin Bayramlı**

# Amerikanın demonkratik sifəti

**Dünyada özünü demokratiyanın və insan hüquqlarının qoruyucusu kimi təqdim edən ABŞ bunun tam əksini etməklə məşğuldur**

ABŞ-ın ermənipərəstliyinin səbəbləri haqda çox yazılıb. Bunun kökü xeyli əvvələ dayanır, bu barədə bir qədər sonra. Hələlik isə günümüzdəki siyasətinin səbəblərindən danışmaq istəyirik. Təbii ki, burada bir əsas səbəb var: Qafqaza soxulmaq üçün Gürcüstan əməliyyatı Rusiyanın mane olması nəticəsində tam istədikləri kimi alınmadığından rəngli inqilab nəticəsində Paşinyan komandasını hakimiyyətə gətirdikləri Ermənistana dəstək verməklə regiona soxulmağa bəhanə əldə etmək.

Bu siyasətin həm də dərin mənəvi-psixoloji, siyasi fəlsəfəsi var. Dünyada erməni lobbisinin hamisi, mərkəzi ABŞ-dır. Hələ Soyuq Müharibə dövründə ABŞ və qərb müttəfiqləri SSRİ-nin daxildən dağıtmaq üçün etnik münaqişə törətmək planının üzərində dayananda bunun üçün ən yaxşı alətin ermənilər olduğunu aydınlaşdırdılar. Çünki ermənilərin türklərə qarşı iddia etdikləri saxta soyqırım yaraları və azərbaycanlılara qarşı törətdikləri soyqırımlar var və onları bu yöndə formalaşdıraraq SSRİ daxilində azərbaycanlılara qarşı qoymaqla və iki xalqı müharibə həddinə gətirməklə Sovet İttifaqını daxildən parçalamaq planı effektiv görünürdü və elə də oldu.

70-80-ci illərdə qəftətən ABŞ-da Fransada və digər Qərb dövlətlərində erməni lobbisi peyda olur və dəfələrlə gücləndirilir. Bunlara yönəldilən pullarla çox sayda təşkilatlar, media quruluşları, şirkətlər təşkil olunur. Erməni lobbisi gücləndirildikdən sonra onlardan SSRİ-dəki erməniləri ”maarifləndirmək” üçün geniş istifadə olunur. Etnik qarşşıdurma təşkil olunduqdan və proseslər qızışandan sonra ABŞ tərəfindən SSRİ rəhbərliyi qarşısında ”məzlum” ermənilərin müdafiəsi tələbləri ilə məsələ qaldırılır və Moskvaya bununla bağlı siyasi təzyiqlər edilir. Sonrası hamısınıza məlumdur.

Lakin biz təkcə bu məsələləri yox, bu dövlətin özünün dünyada törətdiyi saysız-hesabsız, müharibə, terror, qırğın və s faciələrdən bəzilərini də xatırlatmaq istəyirik.

ABŞ-ın bir dövlət kimi yaranması məhz çoxsaylı və kütləvi soyqırım aktları nəticəsində baş verib. ”Yeni dünya”ya gələn avropalılar Amerika qitəsinin yerli xalqlarını, sözün əsl mənasında, çəyirtkə kimi qırdılar, on milyonla aborigen amansızlıqla və kütləvi şəkildə məhv edildi. Hətta soyqırımı daha fəal həyata keçirənlərə, yəni daha çox insan öldürənlərə xüsusi mükafatlar belə təyin olunmuşdu.

ABŞ müstəqilliyini elan etdikdən sonra öz tarixi ərzində dünyada törətmədiyi müharibə, təcavüz, qırğın, terror aktı qalmayıb. Biz bunu I və II dünya müharibələri zamanı da, Yaponiyaya iki dəfə atom bombası atarkən də, keçmiş Yuqoslaviya ərazisinə, Vyetnama, Liviyaya, Koreyaya, İraqa, Əfqanıstana, Suriyaya, İraqa... hücumlar edərkən də görmüşük.

İndi sizə Amerika qitəsində aborigen xalqların 100 milyondan artıq nümayəndəsinin məhv edilməsindən sonra həyata keçirdikləri bəzi qanlı qırğın faktlarını xatırlayaq;

-1898-də Kuba və Meksikanı işğal etdi,

-1921-də Nikaraquanı işğal etdi,

-1945-də heç bir zərurət olmadan Yaponiyaya 2 dəfə atom bombası atdı və 250 min dinc insanı məhv etdi, milyonlarla insanı əlil etdi,

-1950-53-də yüz minlərlə koreyalını qətlə yetirdi,

-1954-də minlərlə qvatemalalını öldürdü,

-1956-59-da Kubada amerikalıların Batista ilə birgə həyata keçirdiyi əməliyyatlarda 60 min kubalı öldürüldü,

-1965-də ABŞ əlaltısı Suxarto 1 milyon indoneziyalını qətlə yetirdi,

-1965-də Dominikan Respublikasına desant çıxardı və 10 min insanı məhv etdi,

-1975-də Vyetnamdan qovulan Amerika ordusu bakterioloji və kimyəvi silahların tətbiqi nəticəsində fəlakətə düçar olmuş milyonlarla ölü və yaralı buraxdılar,

-1970-75-də Kamboca və Laosda milyonlarla insanı öldürdülər,

-1973-də Çilidə CİA-nın hazırladığı hərbi qiyamda 30 min nəfər öldürüldü,

-1970-ci illərin sonunda Argentinada ABŞ-ın faşist generallarla birgə fəaliyyəti nəticəsində 30 min nəfər məhv edildi,

-1983-də Livana 14 min amerikan dəniz piyadası çıxarıldı və minlərlə insan öldürüldü.

-1985-də qlobal quldurluq numunəsi göstərərək Liviyanı bombaladı, 1000-ə yaxın mülki vətəndaş öldürüldü,

-1989-da Panamaya ordu yeridildi- 5 min nəfər öldürüldü,

-1991-də İraqın Küveytə müdaxiləsini bəhanə edərək digər imperialist dövlətlərlə birlikdə İraq xalqının başına bombalar yağdırdı, yüzlərlə dinc sakin həlak oldu,

-Keçən əsrin son illərində Əfqanıstan, Sudan və Somaliyə müdaxilə edib, nəzarətə götürdü, Sudanı parçaladı,

-2011-də Liviyada yenidən vətəndaş müharibəsi törədərək ölkəyə hərbi müdaxilə etdi və on minlərlə liviyalını məhv etdi.

-2012-ci ildə Suriyada yaratdığı İŞİD, Ən Nüsrə və sair terrorçu təşkilatlar vasitəsilə vətəndaş müharibəsi törətdi və indiyədək 5 milyona yaxın insan həlak olub...

-Son illərdə dünyada (Ukrayna, Fələstin, Qazaxstan, Gürcüstan və s) törətdikləri müharibələr və qarşıdurmaların acı nəticələrini isə hələ də görür və yaşayırıq.

Belə faktların sayı-hesabı yoxdur, hamısını sayıb vaxtınızı niyə aparaq ki? Özünüz hər şeyi bilirsiniz.

Son 30 ildə Qarabağdakı seperatçı və terrorçu rejimə hər öz rəsmi dövlət büdcəsindən milyonlarla dollar vəsait ayrımasını da bilirsiniz. Həmin pullarla o terrorçular silah texnika alıb minlərlə azərbaycanlını öldürürdülər. Azərbaycana qarşı bədnam 90-7-ci düzəliş biabırçılığını isə hələ də unutmamışıq. Bu düzəliş terrorçu və işğalçı ölkəyə yox, terrora, soyqırıma, işğala məruz qoyulmuş ölkəyə qarşı qoyulmuşdu. Dediyim odur ki, belə bir dövlətdən ədalət, demokratiya, beynəlxalq hüquqa riayət etməyi gözləmək absurddur. Ona görə də ABŞ-ın Ermənistanı müdafiə etməsində şəxsən mənim üçün təəccüblü heç nə yoxdur.

Onsuz da artıq bu əməllərin heç bir faydası yoxdur, Azərbaycan işğalda olan ərazilərini öz gücünə və ABŞ kimi dövlətlərin maneçiliyinə baxmayaraq azad etmiş, öz əraziləri üzərində öz hakimiyyətini bərpa etmişdir. Bundan sonra heç bir dövlət Azərbaycana qarşı belə əməllər törədə bilməyəcək- İstər ABŞ olsun, istər Ermənistan, istərsə də başqası. Ona görə də ”Ağ ev” öz qara planlarından əl çəksə yaxşı olar.

# Qadın hüquqlarının inkişafında uğurlu platforma

Beynəlxalq münasibətlər sistemində güclü ölkə olan Azərbaycanın regionun lider dövləti kimi baş verən məsələlərdə maraqları nəzərə alınır. Ölkəmizin belə bir nüfuza sahib olması Azərbaycanın uzaqgörən və praqmatik xarici siyasət strategiyasının məntiqidir. Azərbaycanın dinamik inkişafı, bütün sahələri əhatə edən məqsədyönlü islahatlar və əldə edilən nailiyyətlər beynəlxalq müstəvidə yüksək qiymətləndirilir. Azərbaycan bir sıra beynəlxalq qurumlarda, sadəcə, üzv dövlət kimi təmsil olunmur, eyni zamanda, bir çox qərarların qəbulunda və icrasında yaxından iştirak edir. Dünyanın 120 ölkəsi arasında səmərəli əməkdaşlıq əlaqələrinin qurulmasında və inkişafında Qoşulmama Hərəkatı mühüm siyasi platformadır. Ölkəmizin Qoşulmama Hərəkatına üzv olduqdan cəmi 8 il sonra ölkələrin yekdil qərarı ilə 2019-2022-ci illər üzrə təşkilata sədrlik etmək kimi statusa malik olması da Azərbaycanın etibarlı tərəfdaş kimi mövqeyini gücləndirməsi, ikitərəfli və çoxtərəfli münasibətlərini inkişaf etdirməsi baxımından ölkəmizə mühüm dividendlər gətirir. Azərbaycan Qoşulmama Hərəkatına qlobal anlamda çox çətin bir dönəmdə sədrliyi öz üzərinə götürməsinə baxmayaraq, çox effektiv və konstruktiv sədrlik nümayiş etdirdi. Azərbaycan Prezidenti İlham Əliyev Qoşulmama Hərəkatının tarixində ilk dəfə olaraq "Qadınların hüquqlarının inkişaf etdirilməsi və səlahiyyətlərinin artırılması" mövzusunda keçirilən Konfransın iştirakçılarına ünvanladığı məktubunda bildirdiyi kimi, üzv dövlətlərin yekdil qərarı ilə Azərbaycan 2019-cu ildə BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatının sədri seçilmişdir: "Sədrliyimizin müddətinin yekdilliklə 2023-cü ilə qədər bir il daha uzadılması Azərbaycanın Hərəkat çərçivəsində fəaliyyətinə verilən yüksək qiymətin göstəricisidir. Biz ölkəmizə olan bu etimadı yüksək qiymətləndiririk".





## "QOŞULMAMA HƏRƏKATININ QADINLAR PLATFORMASININ YARADILMASI TƏKLİFİ TƏRƏFİMDƏN İRƏLİ SÜRÜLMÜŞDÜR"

Dünyada nüfuzu getdikcə artan və regionda aparıcı aktora çevrilən Azərbaycan Qoşulmama Hərəkatına sədrliyinin COVID-19 pandemiyası dövrünə təsadüf etməsinə baxmayaraq, dünya ölkələrinin əksəriyyətinin özünə qapandığı zamanda Bakı qlobal liderlik rolunu üzərinə götürdü, qlobal problemin öhdəsindən gəlmək üçün beynəlxalq həmrəyliyi və əməkdaşlığı təbliğ edən ilk dövlətlərdən oldu. Prezident İlham Əliyevin təşəbbüsü ilə 2020-ci ilin mayında QH-nin COVID-19 ilə mübarizəyə həsr edilən onlayn sammiti keçirildi. Azərbaycanın sədrliyinin ən böyük uğurlarından biri də QH-nin təsisatlanması məsələsidir. Ölkəmizin sədrliyi dönəmində Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi və Gənclər Təşkilatı təsis olunub. Hərəkatın 61 illik tarixində ilk dəfə olaraq Şuşada Hərəkata üzv ölkələrin gənclərini birləşdirən Gənclər Təşkilatı yaradıldı. Cənab Prezidentin məktubunda "Bu ilin iyul ayında Hərəkatın Bakıda keçirilmiş konfransı zamanı Qoşulmama Hərəkatının Qadınlar Platformasının yaradılması təklifi tərəfimdən irəli sürülmüşdür. Həmçinin Azərbaycan sədrliyi dövründə dekolonizasiya gündəliyinə xüsusi diqqət ayırmışdı. Biz bəzi ölkələr, xüsusilə də Fransanın yürütdüyü neokolonializm siyasətini qlobal səviyyədə ifşa etmiş, bu utancverici praktikaya son qoyulması tələbini səsləndirmişik. Kolonializm qadınların hüquqlarına da mənfi təsir göstərmişdir. Bu xüsusda, konfransa paralel olaraq müvafiq mövzuda tədbirin keçirilməsini alqışlayıram" - fikri yer alıb.

## "BİZ BƏZİ ÖLKƏLƏRİN YÜRÜTDÜYÜ "VAKSİN MİLLİYYƏTÇİLİYİ" SİYASƏTİNƏ SƏSSİZ QALMADIQ"

Bildiyimiz kimi, bütün dünyanı koronavirus pandemiyası cənginə aldığı zamanda onun qarşısını almaq və yoluxma sayını minuma endirmək məqsədi ilə Azərbaycanda təxirəsalınmaz tədbirlər davamlı olaraq həyata keçirilməyə başlandı. Əlbəttə ki, ölkəmizdə pandemiya ciddi nəzarət altında saxlanıldığından Azərbaycan "COVID-19"-la mübarizədə qabaqcıl ölkələr sırasında yer aldı. Yoluxma hallarının aşkarlanması, xəstəliyin yayılmasının qarşısının alınması və insanların həyatının xilas edilməsi və s. məqsədilə geniş tədbirlər reallaşdı. Ölkəmizdə əhalinin vaksinasiya işləri uğurla reallaşıb. Vaksinasiyaya start verən Avropa İttifaqından bir ay sonra Azərbaycanda bu prosesə başlanıldı. Əlbəttə ki, Azərbaycan "COVID-19"-la bağlı milli və beynəlxalq səviyyədə ciddi səylər göstərərək qlobal səyləri səfərbər edən ilk ölkələrdən biridir. Azərbaycan öz beynəlxalq məsuliyyətinə sadiq olaraq Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə yardımı ayırdı və Azərbaycanın koronavirusla bağlı 30-dan çox ölkəyə humanitar və maliyyə yardımları etdi. Eləcə də dörd ölkəyə isə təmənnasız olaraq 150 min doza vaksin təqdim olundu. Qoşulmama Hərəkatı bütün ölkələrin peyvəndlərdən ədalətli və vahid şəkildə istifadəsini təmin etmək üçün 2021-ci ildə BMT-nin İnsan Hüquqları Şurasında və BMT Baş Assambleyasında qəbul edilmiş iki qətnamənin təşəbbüskarı oldu. Azərbaycan pandemiya ilə mübarizə sahəsində qlobal səylərin səfərbər edilməsi üçün mühüm addımlar atmış oldu. Azərbaycan peyvənd millətçiliyinə qarşı ən çox mübarizə aparan, pandemiyanın qarşısının alınması üçün real iş görən ölkələrdən biri kimi tanınıb və qəbul edilib. Peyvəndlərin bərabər və ədalətli şəkildə paylanması məsələsi də mühüm əhəmiyyət kəsb edir. Dünya ölkələrinin əksəriyyəti özünə qapandığı dövrdə Azərbaycanın pandemiyanın öhdəsindən gəlmək üçün beynəlxalq həmrəyliyi və əməkdaşlığı təbliğ edən ilk ölkələrdəndir. "Məhz Qoşulmama Hərəkatı COVID-19 pandemiyasına qarşı qlobal səylərin səfərbər olunmasında aparıcı rol oynamışdır. 2020-ci ilin dekabr ayında Azərbaycanın təşəbbüsü ilə BMT Baş Assambleyasının COVID-19 ilə mübarizəyə həsr edilmiş xüsusi sessiyası təşkil edilmişdir. Biz bəzi ölkələrin yürütdüyü "vaksin milliyyətçiliyi" siyasətinə səssiz qalmadıq və vaksinlərin ədalətli şəkildə bölüşdürülməsini təşviq etdik. Humanist dəyərləri əsas götürərək Azərbaycan əksəriyyəti Qoşulmama Hərəkatına üzv dövlətlər olmaqla 80-dən artıq ölkəyə maliyyə və humanitar yardım göstərdi. Bununla yanaşı, bu il Azərbaycan Afrika və inkişaf etməkdə olan kiçik ada dövlətlərində pandemiyanın fəsadlarının aradan qaldırılması məqsədilə maliyyə vəsaitinin ayrılması barədə qərar qəbul etdi" - deyə Prezident ünvanladığı məktubunda bildirib.

## "MÜSƏLMAN DÜNYASINDA QIZLAR ÜÇÜN İLK DÜNYƏVİ MƏKTƏB MƏHZ BAKIDA AÇILMIŞDIR"

"Qadınların hüquqlarının müdafiəsi, cəmiyyətdə rolunun gücləndirilməsi Qoşulmama Hərəkatının gündəliyində önəmli yer tutur" - deyən Prezident bildirib ki, hərəkat tərəfindən ardıcıl olaraq qəbul edilmiş sənədlərdə, o cümlədən 2019-cu il Bakı Zirvə toplantısının yekun sənədində bu mövzuya xüsusi diqqət yetirilmiş və bu sahədə üzv dövlətlərin öhdəlikləri müəyyən edilmişdir: "Qadınların ictimai, siyasi, sosial və humanitar sahələrə, o cümlədən elm və maarifçiliyin inkişafına verdikləri böyük töhfələr danılmazdır. Əsrlər boyu Azərbaycan qadınları zəngin mədəniyyətimizin, ənənələrimizin və ailə dəyərlərimizin qorunmasında, milli köklərinə sadiq nəslin yetişdirilməsində vacib rol oynayıb. Hələ 1901-ci ildə müsəlman dünyasında qızlar üçün ilk dünyəvi məktəb məhz Bakıda açılmışdır. Azərbaycan əksər Avropa ölkələrini qabaqlayaraq 1919-cu ildə müsəlman dünyasında qadınlara səsvermə hüququ verən ilk respublika olmuşdur".

Ölkənin ictimai-siyasi və mədəni həyatında aparıcı qüvvəyə malik olan Azərbaycan qadını cəmiyyətdə böyük nüfuza malik olduğunu əməllərilə təsdiqləyib. Müsəlman Şərqində qadınlar arasında incəsənətin, elmin və texnikanın bir çox sahələri üzrə ilk addımı, məhz Azərbaycan qadını atmışdır. 1918-ci il mayın 28-də yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində ilk demokratik respublika olmaqla yanaşı, qadınların seçib-seçilmək hüququnu tanıyan, qadın-kişi bərabərliyini təmin edən ilk müsəlman ölkəsi olub.

## "ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN PROFESSOR-MÜƏLLİM HEYƏTİNİN 63 FAİZİNİ QADINLAR TƏŞKİL EDİR"

Müasir dünyamızda milli qadın siyasəti dövlət statusu alıb. Bununla da, nəinki Şərqdə, hətta demokratiyanın beşiyi sayılan bir sıra Avropa ölkələrindən və ABŞ-dan əvvəl, məhz Azərbaycanda qadına cəmiyyətin həyatında siyasi proseslərə qoşulmaq hüququ verilib. Dövlət müstəqilliyimizin bərpasından sonra Azərbaycan qadını milli dövlət quruculuğu prosesinin fəal iştirakçısına çevrildi. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan qadın siyasəti nəticəsində Azərbaycan qadını elm və təhsil, səhiyyə və mədəniyyət, eləcə də, digər sahələrdə qazandığı uğurları ilə öz nüfuzunu ilbəil artırmağa nail oldu. Vətəndaş cəmiyyəti quruculuğu istiqamətində qadınlarımızın nailiyyətləri göz önündədir. Ölkəmizdəki demokratik mühit fitri istedadlarını və yaradıcılıq imkanlarını tam gerçəkləşdirməyə imkan verir. Təbii ki, mövcud mühitin formalaşmasında Azərbaycan qadınlarının böyük rolu danılmazdır. Azərbaycan qadını milli məfkurəyə sadiq qalaraq, bu gün də müstəqil Azərbaycanın güclənməsi naminə töhfələr verir. 2000-ci ilin mart ayının 6-da Ulu Öndər Heydər Əliyevin "Azərbaycan Respublikasında dövlət-qadın siyasətinin həyata keçirilməsi haqqında" Fərmanı ölkədə qadın siyasətinin gerçəkləşməsinə xidmət edən məsələlərdəndir. Təqdirəlayiq haldır ki, həmin sənəd 2001-ci ildə bütün dünya dövlətlərinə paylanılıb və bu sahədə ən yaxşı sənəd kimi qəbul olunub. Ölkəmizdə qadın problemləri daim dövlətin diqqətindədir. Prezident İlham Əliyevin rəhbərliyi ilə sürətlə inkişaf edərək bölgənin lider dövlətinə çevrilmiş Azərbaycan gender siyasətini davamlı olaraq reallaşdırır. Hüquqi bazanın təkmilləşdirilməsi və bərabər hüquqların təmin edilməsi üçün "Gender bərabərliyinin təminatları haqqında", "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikası qanunları qəbul olunmuşdur.məktubda qeyd olunur ki, Azərbaycanda qadın hüquqlarının təmin olunması və onların cəmiyyətdə və dövlət idarəçiliyində rolunun artırılması daim diqqət mərkəzindədir: "Bu gün də Azərbaycan qadınları elm, təhsil, səhiyyə, incəsənət və digər sahələrdəki əzmkar və çoxşaxəli fəaliyyətləri ilə ölkəmizin rifahına və tərəqqisinə dəyərli töhfələr verirlər. Ali təhsil müəssisələrinin professor-müəllim heyətinin 63 faizini qadınlar təşkil edir. Dövlət tibb müəssisələrinin tibbi kadrlarının 70 faizi qadındır. Yerli özünüidarəetmə orqanlarında qadınların təmsilçiliyi 40 faizdir. Dövlət tərəfindən özünüməşğulluq proqramlarına göstərilən dəstək tədbirləri nəticəsində fərdi sahibkar qadınların sayı artmaqdadır".

Cənab Prezident onu da qeyd edib ki, Qoşulmama Hərəkatına sədrliyimizin sonu yaxınlaşmaqdadır və Azərbaycan Qoşulmama Hərəkatının ən gənc üzvlərindən biri olmasına baxmayaraq, sədrliyi təhvil alacaq növbəti ölkələrə uğurlu miras qoyacaqdır: "Ölkəmiz bundan sonra da Qoşulmama Hərəkatının məqsədlərinin və məramının beynəlxalq səviyyədə təşviq edilməsi istiqamətində səylərini davam etdirəcəkdir. Əminəm ki, bu əlamətdar konfrans qadınların hüquqlarının inkişaf etdirilməsi və səlahiyyətlərinin artırılması ilə bağlı səmərəli fikir mübadiləsinin aparılması üçün əhəmiyyətli platforma rolunu oynayacaq və bu sahədə birgə fəaliyyətin aparılması üçün Qoşulmama Hərəkatının tarixində yeni bir dövrün başlanğıcının əsasını qoyacaqdır."

***Nəzakət ƏLƏDDİNQIZI***

# Milli Məclis gələn ilin dövlət büdcəsini təsdiqlədi

**Dünən Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin payız sessiyasında növbəti plenar iclası keçirilib. S.Qafarova iclasın gündəliyinə 21 məsələnin daxil edildiyini və gündəliyin birinci məsələsinin Milli Məclisin bəyanatı olduğunu deyib.**

O, Azərbaycanın Vətən müharibəsində qazandığı Qələbədən, daha sonra sülh müqaviləsi imzalamaq təşəbbüsü ilə çıxış etməsindən, həmçinin Ermənistanın törətdiyi təxribatlardan danışıb, bu ilin sentyabrında keçirilən antiterror tədbirlərinin məqsədini xatırladıb.

S.Qafarova Ermənistanın sülh naminə çalışmaq əvəzinə, hələ də Azərbaycana qarşı yalan və əsassız ittihamlar əsasında beynəlxalq ictimaiyyəti çaşdırmağa çalışdığını, ölkəmizə qarşı kampaniyada bütün imkan və platformalardan istifadə etdiyini deyib, son dövrlərdə bu məsələ ilə əlaqədar Azərbaycana qarşı bir sıra qeyri-obyektiv və ədalətsiz qətnamələrin qəbul olunduğunu diqqətə çatdırıb. Bildirib ki, daha bir sənəd noyabrın 15-də ABŞ Senatı tərəfindən qəbul edilib. Sənəddə bölgədən könüllü getmiş erməni sakinlərin zorla köçürüldüyü iddia edilir. Bu, BMT-nin, Beynəlxalq Qırmızı Xaç Komitəsinin, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının və digər beynəlxalq təşkilatların rəylərinə tamamilə ziddir. Sonra məsələ ətrafında müzakirələr aparılıb.

Komitə sədrləri Ziyafət Əsgərov, Səməd Seyidov, Zahid Oruc, Siyavuş Novruzov, deputatlardan Tural Gəncəliyev, Elman Nəsirov, Sahib Alıyev, Musa Qasımlı, Fəzail Ağamalı çıxış edərək, ABŞ Senatı tərəfindən qəbul edilmiş "2023-cü il erməniləri müdafiə aktı"nın Azərbaycana qarşı qərəzli, heç bir əsası olmayan, ikili stanadrtlara söykənən ədalətsiz bir sənəd olduğunu, Cənubi Qafqazda separatizmi, terrorizmi dəstəklədiyini söyləyiblər.

Deputatlar Azərbaycanın müstəqilliyinə qarşı yönəlmiş hərəkətləri qəbuledilməz adlandırıb, həmçinin ABŞ-ın bir sıra dünya ölkələrində həyata keçirdiyi destruktiv fəaliyyətini pisləyiblər. Çıxışlarda Azərbaycan Prezidenti İlham Əliyevin 5 prinsipdən ibarət sülh müqaviləsi təşəbbüsünü irəli sürdüyü vurğulanıb. İclasda Milli Məclisin ABŞ Senatının qərarı ilə əlaqədar bəyanatın mətninin hazırlanması üçün komissiya yaradılıb, sədri və üzvləri seçilib. Deputat Kamilə Əliyeva bəyanatı səsləndirdikdən sonra ABŞ Senatının "2023-cü il erməniləri müdafiə aktı" ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı səsə qoyularaq qəbul edilib.

Sonra parlamentin sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, gündəliyin növbəti 12 məsələsi dövlət büdcəsi və büdcə zərfinə daxil olan qanun layihələridir (ikinci oxunuş). Gündəliyin 2-ci məsələsi olan "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" qanun layihəsi haqqında İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili məlumat verib. Qeyd olunub ki, birinci oxunuşda deputatlar sənədi konseptual baxımdan dəstəkləyərək, bir sıra təkliflər səsləndiriblər. Təqdim olunan makroçərçivənin iqtisadi imkanlara uyğun olduğunu, dövlət qarşısında duran çağırışlara cavab vermək üçün lazımi maliyyə imkanının yaradılacağını qeyd ediblər.

Məsələ ətrafında aparılan müzakirələrdə komitə sədri Siyavuş Novruzov, deputatlar Vüqar Bayramov, Azay Quliyev, İltizam Yusifov, Sabir Hacıyev çıxış edib, fikir və qeydlərini səsləndiriblər. Sonra iclasda maliyyə naziri Samir Şərifov çıxış edib. O, növbəti ilin dövlət büdcəsinin Milli Məclisin komitələrində və plenar iclaslarında müzakirələrinin səmərəli keçdiyini qeyd edərək, deputatların bir sıra məsələlər qaldırdıqlarını söyləyib. Nazir həmin məsələlərin aidiyyəti dövlət orqanlarında baxılaraq, nəticələri barədə parlamentə məlumat veriləcəyini bildirib.

Samir Şərifov deputatların büdcə layihəsinin strukturu, elm və təhsilin maliyyələşməsi, bəzi ərazilərdə təbii qaz, su təchizatı, nəqliyyat, təhsil və digər infrastrukturların yenidən qurulması, əsaslı təmiri və digər məsələlərə dair təklif və tövsiyələrinin də



təhlil edildiyini, bununla bağlı məlumatın təqdim olunacağını deyib. Nazir vergilərin azaldılmasına dair irəli sürülən təkliflərlə bağlı fikirlərini açıqlayıb. Samir Şərifov qarşıda duran əsas vəzifələrdən birinin işğaldan azad edilmiş ərazilərin yenidən qurulması, bu ərazilərin ölkə iqtisadiyyatına reinteqrasiyası ilə bağlı olduğunu və bu məqsədlə hər il dövlət büdcəsindən vəsaitin təmin edilməsinin vacibliyini bildirib və bu məsələlərin də təqdim olunmuş layihədə öz əksini tapdığını deyib.

Müzakirələrin sonunda "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" qanun layihəsi ikinci oxunuşda qəbul edilib. Fasilədən sonra iclasda büdcə zərfinə daxil olan qanun layihələrinin müzakirəsi aparılıb. Gündəliyin 3-cü və 4-cü məsələlərinin - "Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında" (ikinci oxunuş) və "İşsizlikdən Sığorta Fondunun 2024-cü il büdcəsi haqqında" (ikinci oxunuş) qanun layihələrinin təqdimatları və müzakirələri birlikdə aparılıb, səsvermə isə ayrı-ayrılıqda keçirilib.

Məsələlərlə bağlı Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bildirib ki, hər iki qanun layihəsi barədə birinci oxunuşda ətraflı məlumat verilib. Qanun layihələrinin mətnində heç bir dəyişiklik edilmədiyini qeyd edən komitə sədri fondların gəlirləri və xərclərinin əsas parametrlərini səsləndirib. Sonra komitə sədri Tahir Mirkişili təqdim olunan qanun layihələri ilə bağlı rəhbərlik etdiyi İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin müsbət rəyini diqqətə çatdırıb.

Müzakirələrdə komitə sədri Siyavuş Novruzov, deputatlar Vüqar Bayramov, Etibar Əliyev, Vahid Əhmədov, Soltan Məmmədov, Elşən Musayev, Rüfət Quliyev çıxış edərək fikirlərini açıqlayıblar. Deputatların səsləndirdikləri fikirlərə komitə sədri Musa Quliyev və əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev münasibətlərini bildirib aydınlıq gətirəndən sonra qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Növbəti məsələ olan "Azərbaycan Respublikasında 2024-cü il üçün yaşayış minimumu haqqında" qanun layihəsi (ikinci oxunuş) barədə Tahir Mirkişili məlumat verib. O bildirib ki, 2024-cü il üçün yaşayış minimumu ölkə üzrə 246 manatdan 270 manata, əmək qabiliyyətli əhali üçün 261 manatdan 287 manata, pensiyaçılar üçün 199 manatdan 222 manata, uşaqlar üçün isə 220 manatdan 235 manata qədər artırılır.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev rəhbərlik etdiyi komitənin layihə barədə müsbət rəyini diqqətə çatdırıb. Deputat Etibar Əliyevin fikirləri dinlənildikdən sonra sənəd səsə qoyularaq ikinci oxunuşda qəbul edilib. Sonra Musa Quliyev gündəliyin 6-cı məsələsi olan "Azərbaycan Respublikasında 2024-cü il üçün ehtiyac meyarının həddi haqqında" qanun layihəsi (ikinci oxunuş) barədə məlumat verib. Komitə sədri bildirib ki, gələn il üçün ehtiyac meyarının həddi 24 manat artırılaraq 270 manat nəzərdə tutulur. Tahir Mirkişili rəhbərlik etdiyi komitənin layihə barədə müsbət rəyini diqqətə çatdırıb. Qanun layihəsinin müzakirəsində deputatlar Aydın Hüseynov, Vüqar Bayramov və Əli Məsimli fikirlərini bildirdikdən sonra sənəd səsə qoyularaq ikinci oxunuşda qəbul olunub. O, həmçinin Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) barədə məlumat verib.

Diqqətə çatdırılıb ki, təqdim edilmiş qanun layihəsi sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması, sahibkarlıq fəaliyyətinin təşviqi, sosial xarakterli güzəştlər vasitəsilə əhalinin vergi yükünün azaldılması, vergi nəzarəti mexanizmlərinin təkmilləşdirilməsi istiqamətləri üzrə dəyişiklikləri ehtiva edir. Komitə sədri layihənin maliyyə sektoru və kapital bazarları, səhiyyə, kənd təsərrüfatı, nəqliyyat, yükdaşıma, turizm, biznes və digər sahələr üzrə vergi güzəştləri, vergidən azadolmanın ləğv olunması istiqamətləri barədə danışıb. Deputat Rəşad Mahmudovun layihə ilə bağlı fikirləri dinlənildikdən sonra sənəd səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Sonra Milli Məclis sədrinin birinci müavini, parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Mülki Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) ilə bağlı məlumat verib. Sənəddə məhdud məsuliyyətli və ya səhmdar cəmiyyətlərinə qarşı pul tələbinə malik olan şəxslərin pul tələblərini əvəzləşdirməklə nizamnamə kapitalına maya qoyması və ya əlavə buraxılmış səhmləri əldə etməsi, maliyyə bazarlarında nəzarət edilən subyektlərə münasibətdə isə bu prosesin maliyyə bazarlarını tənzimləyən qanunlarda mühüm iştirak payının əldə olunmasına dair tələblər nəzərə alınmaqla həyata keçirilməsi ilə bağlı müddəalar nəzərdə tutulub. Tahir Mirkişili rəhbərlik etdiyi komitənin bu sənəd barədə müsbət rəyini bildirdikdən sonra qanun layihəsi ikinci oxunuşda qəbul olunub. O, həmçinin "Nağdsız hesablaşmalar haqqında" Qanunda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsini təqdim edib. Diqqətə çatdırılıb ki, layihə pərakəndə satış sahəsində və tibb müəssisələrində bir nəzarət-kassa aparatının çekinin bir əməliyyat sayılmasını özündə ehtiva edir.

Sonra Milli Məclisin sədri Sahibə Qafarova gündəliyin növbəti 7 məsələsinin üçüncü oxunuşda qanun layihələri olduğunu bildirib. Əli Hüseynli "Dövlət qulluğu haqqında" Qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsi ilə bağlı məlumat verib. O, bu sənəd və dövlət qulluğu ilə əlaqədar deputatların səsləndirdiyi fikirlərə münasibət bildirildiyini söyləyib. Sənəd Azərbaycan Respublikası Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi vəzifəsini "Dövlət qulluğu haqqında" qanunda təsnifləşdirməklə həmin vəzifəni yerinə yetirən şəxslərin müvafiq təsnifat vəzifələri üzrə dövlət qulluqçularına aid hüquq və təminatlardan istifadə etmək, vəzifələri yerinə yetirmək məqsədi ilə hazırlanıb.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib. Ə.Hüseynli həmçinin "Dövlət qulluğu haqqında" Qanunda və Azərbaycanın 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. O bildirib ki, dəyişikliklər miqrasiya orqanlarında qulluqkeçmə və rütbə dərəcələri ilə bağlıdır. Qanun layihəsi üçüncü oxunuşda qəbul olunub. Parlamentin spikeri Sahibə Qafarova gündəliyin sonuncu beş məsələsinin cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olduğunu və məzmunca bir-birinə yaxın olduğunu diqqətə çatdırıb.

S.Qafarova bu məsələlərin Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş), "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş), "Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin miqdarına, habelə onların külli miqdarına görə siyahılarının təsdiq edilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş), "Güclü təsir edən maddələr və onların külli miqdarının, habelə zəhərli maddələrin siyahılarının təsdiq edilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş), "Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz hazırlanmasında və emalında prekursorlardan istifadə məqsədi ilə törədilən əməllərlə əlaqədar həmin prekursorların xeyli və külli miqdarının siyahısı"nın təsdiq edilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihələrinin olduğunu bildirib.

Sonra Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Əminə Ağazadə həmin məsələləri təqdim edib. O, qanun layihələri barədə birinci və ikinci oxunuşlar zamanı ətraflı məlumat verildiyini, müzakirələrin aparıldığını, bu dövrdə komitəyə heç bir təklifin daxil olmadığını söyləyib, sənədlərin olduğu kimi səsə qoyulmasını xahiş edib. Gündəlikdəki son 5 qanun layihəsi də ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

# Müasir tariximizin şərəfli dövrü

## Zərdab rayonunda "Heydər Əliyev İli" çərçivəsində tədbir keçirilib

“Heydər Əliyev İli” ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində noyabrın 21-də YAP Zərdab rayon təşkilatı tərəfindən tədbir keçirilib. Əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyulub, dahi şəxsiyyətin xatirəsi ehtiramla yad olunub.

Tədbirdə Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Ümummilli Liderin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub. Tədbiri giriş sözü ilə açan YAP Zərdab rayon təşkilatının sədri İlkin Əliyev müstəsna xidmətləri ilə əbədilik qazanan Ümummilli Lider Heydər Əliyevin böyük, mənalı və şərəfli həyat yolu, zəngin və çoxşaxəli irsi haqqında danışıb. Bu gün təsis edilməsinin 31-ci ildönümü qeyd olunan Yeni Azərbaycan Partiyasının ötən dövr ərzində şərəfli yol keçdiyi, ümumxalq partiyasına çevrildiyi diqqətə çatdırılıb. Qeyd olunub ki, Ulu Öndər Heydər Əliyevin yaratdığı partiya ötən dövr ərzində ölkəmizin ictimai-siyasi həyatında əhəmiyyətli rol oynamaqla yanaşı, müasir dövrdə beynəlxalq aləmdə tanınan nüfuzlu partiyalar sırasında olması dahi şəxsiyyətin uzaqgörən, müdrik siyasətinin nəticəsidir.





Zərdab rayon İcra Hakimiyyətinin başçısı Mərdan Camalzadə bildirib ki, Ümummilli Lider Heydər Əliyev tarix yaradan fenomenal şəxsiyyətdir. Görkəmli dövlət xadimi, dünya miqyaslı siyasətçi, Azərbaycan dövlətçiliyini bütün təhlükələrdən qoruyan və inkişaf etdirən qüdrətli şəxsiyyət Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi illər müasir tariximizin şərəfli dövrünü əhatə edir.

YAP İdarə Heyətinin üzvü Tofiq Cahangirov qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin hər iki dövründə özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarlar ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük uğurlara nail olunub. Ulu Öndər Heydər Əliyevin siyasi kursu Prezident İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirilir.

YAP Veteranlar Şurasının üzvü Sudeyf İmamverdiyev vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyevin ideyaları, uzaqgörənliyi və qətiyyəti nəticəsində yaradılan YAP-ın 31 illik tarixi zəngin və şərəfli inkişaf yoludur. Azərbaycanın ən güclü və mütəşəkkil siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının möhtəşəmliyinin bariz təzahürü onun milli maraqların ifadəçisi olmasıdır. Yeni Azərbaycan Partiyası təsis olunduğu gündən xalqın inam və etimadını ən yüksək səviyyədə doğruldub. Milli Məclisin deputatı Jalə Əliyeva Ulu Öndərin öz mənalı və zəngin ömrünü bütövlükdə millətinə, xalqına, Vətəninə və dövlətinə həsr etdiyini, müqəddəs amallar uğrunda müstəsna fəaliyyət göstərdiyini diqqətə çatdırıb. O qeyd edib ki, məhz Ulu Öndərin gərgin əməyi və qətiyyətli siyasəti sayəsində yeni, müasir Azərbaycan dövləti qurulmuş, ölkəmiz dünya məkanında öz layiqli yerini tutmuşdur. Sonda rayonun ictimai-siyasi həyatında fəal iştirak edən partiya üzvlərinə fəxri fərman və təşəkkürnamə, YAP sıralarına yeni qoşulanlara üzvlük vəsiqələri təqdim edilib. Tədbirə Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə yekun vurulub.

# BMT-nin Beynəlxalq Məhkəməsinin qərarında ABSURD MƏQAMLAR

Azərbaycanın Qarabağ iqtisadi rayonunu öz istəkləri ilə, yaxud da Ermənistan tərəfinin, eləcə də qondarma rejimin təkidi ilə tərk etmiş ermənilərin geri qayıtması üçün ölkəmizin şərait yaratmalı olduğu barədə BMT-nin Beynəlxalq Məhkəməsinin qərar çıxarması heç də məntiqi deyil. Ona görə ki, ermənilərə həmin ərazilərdə qalmağa, yaşamağa məhz Azərbaycanın imkan vermədiyi qənaətində olanlar belə qərar qəbul edə bilərdilər, halbuki, belə qənaətdə olmaları mümkünsüzdür. Çünki həmin o ermənilərə ərazilərimizdə qalmaq, hətta köç edib gedənlərə geri dönüb ölkəmizin vətəndaşlığını qəbul edərək, yaşamaq təklifini hamıdan öncə Azərbaycan tərəfi təklif etmişdi və bu barədə hər kəs yetərincə məlumatlıdır.




Qarabağda yaşayan ermənilərə hələ köç etmələrindən öncə təklif edilmişdi ki, Azərbaycan vətəndaşlığını qəbul edəcəkləri təqdirdə onların təhlükəsizlikləri də, hüquqları da digər ölkə vətəndaşları kimi tam təmin olunacaq. Reinteqrasiya məsələləri ilə bağlı ölkəmizin təklifləri də heç kim üçün sirr deyildi. Hətta bütün bunların müzakirəsi ilə əlaqədar Qarabağdakı erməni icmasının nümayəndələri ilə görüşlər də baş tutmuşdu və bu barədə BMT-nin Beynəlxalq Məhkəməsinin məlumatsız olması qətiyyən inandırıcı ola bilməz. Belə olan halda həmin o məhkəmə qeyd olunan qərarı niyə çıxarmalı idi axı? Nə zamansa ermənilərin ərazilərimizdə qalmasına, yaxud geri dönüşünə maneə yaradılmışdımı ki, belə bir qərara ehtiyac olsun? Hər halda bütün bunların fonunda, ”Azərbaycan ermənilərin geri qayıtmasını təmin etməlidir”, məsələsinin mütəmadi olaraq gündəmə gətirilməsi yersiz olmaqla yanaşı, həm ölkəmizə qarşı qərəzdən, ədalətsizlikdən, həm də ermənipərəst mövqedən çıxış edənlərin absurd yanaşmasından xəbər verən məqamlardır.

Köç edib ərazilərimizi tərk edən ermənilərin geri qayıtmaq niyyətində olmadığı, bir qisminin sürətli şəkildə Ermənistan ərazilərini tərk edərək, xarici ölkələrə üz tutduqları barədə digərləri kimi, BMT-nin Beynəlxalq Məhkəməsi də məlumatlıdır. Hətta qalanlarının da geri qayıtmasına heç rəsmi İrəvanın da razı olmaması barədə belə kifayət qədər məlumata malikdir. Çünki heç kim üçün sirr deyil ki, ölkəmizin ərazilərindən köçüb gedən erməniləri Ermənistan dövləti qondarma da olsa, dırnaqarası ”qaçqın” elan edib və istər siyasi, istərsə də iqtisadi maraqlarına görə onların geri qayıtmasına qətiyyən razı deyil. Bəllidir ki, rəsmi İrəvan sadəcə olaraq, Qarabağdan köç edib gedən erməni əhalisindən həm Bakıya qarşı təzyiq aləti kimi istifadə etməkdədir, həm də onlara görə xaricdən külli miqdarda pul, vəsait əldə edir deyə geri dönmələrini qətiyyən istəməz. Deməli, köç edənlərin məsələsi sadəcə olaraq bəhanə kimi gündəmə daşınır və təəssüf ki, bu zaman sözügedən məhkəmənin timsalında hansısa beynəlxalq qurum həmin bəhanələrin fonunda alət olmağı özünə rəva bilir.

Ölkəmizin Qarabağ İqtisadi rayonunu tərk edən ermənilərin geri qayıdışı ilə bağlı BMT-nin Beynəlxalq Məhkəməsinin qərarında absurd məqamlar olduqca çoxdur. Qərarda qeyd olunur ki, Qarabağın erməni əhalisinin bütün qeydiyyat sənədlərinin, onların şəxsiyyətlərini təsdiq edən sənədlərin, eləcə də xüsusi mülkiyyət sənədlərinin saxlanılmasını Azərbaycan təmin etməlidir. Belə bir qeydin həmin qərarda olması təəccüb doğurmaya bilməz. Ələlxüsus ona görə təəccüb doğurmaya bilməz ki, belə bir qeyd BMT-nin Beynəlxalq Məhkəməsinin qərarında yer alır və hüquqi baxımdan bunun nə demək olduğu sözügedən məhkəməyə daha yaxşı bəlli olmalı idi. Bəlli olmalı idi ki, bu barədə söz açmaq belə hədsiz dərəcədə uyğunsuzdur və qanunun tələblərinə belə ziddir. Halbuki, bunun əksini müşahidə edərək gördük ki, qətiyyən heç nə nəzərə alınmadan həmin qərar verildi və orada da heç bir hüquqi normaya sığışmayan qeydlər edildi.

Qarabağdan köçüb gedən ermənilərin şəxsiyyətini təsdiq edən sənəd, mütləq şəkildə ya Ermənistan tərəfindən verilən pasportlar, ya da qondarma rejimin payladığı yalançı, heç bir hüquqi əsası olmayan pasportlar ola bilər. Beynəlxalq Məhkəməyə aydın deyildimi ki, bir ölkənin suveren ərazisində başqa bir ölkənin, eləcə də qondarma bir rejimin yalançı, hüquqi əsası olmayan pasportunun mövcudluğu qətiyyən beynəlxalq hüquqa uyğun hesab edilmir? Bir halda ki, uyğun hesab edilmir, deməli, heç bir halda, hətta hansı bir ölkə buna səy göstərsə, bunu istəsə belə bu qeydin reallaşması mümkün deyil. Mümkün olmadığı təqdirdə də bunun qərarda qeyd olunması nəyə lazım idi? Deməli, həmin qeyd elə kağız üzərində də qalmağa məhkumdur və Beynəlxalq Məhkəmə də bunu bilə-bilə həmin tələblər barədə qərarda qeyd edib. Maraqlıdır, qərar qəbul edənlər bu məqamı absurd hesab etmədilərmi?

Dünyanın hansı ölkəsində görünüb ki, başqa ölkənin pasportu həmin ölkədə mövcud olsun? Bunu Azərbaycan üçün nəzərdə tutanlar bir az da olsa düşünmək belə istəməyiblər, yoxsa ağılları kəsməyib? Heç olmasa dünya təcrübəsinə nəzər salsınlar və məlum qərarla, həmin qərardakı müvafiq qeydlərlə özlərini gülünc günə qoymasınlar.

Köç edib gedən ermənilərin xüsusi mülkiyyət sənədləri barədə də qərarda qeydin yer alması özü də absurddur. Hansı mülkiyyətdən söhbət gedir? Kimdir mülkün sahibi, ermənilərdirmi? Düz 30 il bundan əvvəl işğal və zəbt etdikləri ərazilərə köçürülən ermənilər nə vaxtdan mülk sahibi olublar ki, onların mülkiyyət sənədləri olsun? Bəli, kimə isə göstərməyə bir kağız parçası tapıla bilər, amma həmin kağız parçası onların mülk sahibi olduğunu təsdiq edə bilməz. Əvvəla ona görə ki, kağız parçalarını onlara ya qondarma rejim verib, ya da Ermənistan tərəfi, hansıki, bunu hüquqi sənəd saymaq olmaz. Çünki qondarma rejimin sənədi də özü kimi qondarma sayılır, Ermənistan isə Azərbaycan ərazisindəki mülklərə sənəd vermək hüququna malik deyil. Sözsüz ki, bir ölkə daxilində mülk sənədini həmin ölkənin özü deyil, başqası verə bilməz. Digər tərəfdən də axı həmin mülklərin azərbaycanlı sahibləri olub və onlar öz mülklərini ermənilərə notarial qaydada, yaxud da adi sözlə belə ”vəsiyyət” etməyiblər ki, hansısa iddiada ola bilsinlər. Axı ermənilər işğal etdikləri torpaqlarda 30 il bundan əvvəl məskunlaşdıqları zaman, öz yurd-yuvalarından didərgin düşən insanların mülklərini məhz zəbt edərək ələ keçiriblər və həmin mülklər onlara məxsus sayılmır. Azərbaycan dövləti də həmin illər ərzində həmin ərazilərdə kimə isə mülk sənədi verməyib və belə çıxır ki, sənədləri başqa ölkə, yaxud qondarma rejim verib və bu sənəd heç bir hüquqi qüvvəyə malik ola bilməz. Başqa beynəlxalq təşkilatlar bir tərəfə, bunu BMT-nin Beynəlxalq Məhkəməsi də olsa başa düşməlidir axı. Ən azından məhkəmə üçün, hüquqi məsələlərlə bağlı hansısa təşkilat, qurum üçün bu məsələ gün kimi aydındır və təəccüb doğuran da, absurd olan da məhz elə budur.

Sözsüz ki, BMT-nin Beynəlxalq Məhkəməsinin məhz haqqında qeyd olunan qərarı nəyi isə dəyişmək gücündə deyil və öncədən vurğulandığı kimi, yalnız kağız üzərində qalmağa məhkumdur. Bununla belə, həmin o kağız üzərində qalmağa məhkum olan qərarda, ermənilərin hüquqlarının təmin edilməsi və görülən tədbirlər barədə Azərbaycanın səkkiz həftə ərzində hesabat təqdim etməli olduğu da qeyd olunur. Görünür, həmin o ”qərar verənlərə” xatırlatmaq lazım gəlir ki, təqdim edəcəyi təqdirdə Azərbaycan həmin hesabata ermənilərin, qondarma rejimin, Ermənistan tərəfinin qanunsuz əməlləri barədə sənədləri də daxil edə bilər. Məsələn, işğal dövründəki qanunsuz köçürmələr barədə sənədlər, eləcə də köç edib gedən ermənilərin böyük əksəriyyətinin Qarabağa aidiyyətinin belə olmadığı faktları, həmçinin, ermənilərin mənimsədiyi mülklərin azərbaycanlılara məxsus olduğunu təsdiq edən sənədlər və sübutlar hesabata öz əksini tapa bilər. Bir sözlə, BMT-nin Beynəlxalq Məhkəməsi hesabat gözlədiyi halda, ermənilərin, qondarma rejimin, eləcə də Ermənistan tərəfinin qanunsuz əməllərini təsdiq edən fakt və arqumentlərlə dolu tutarlı bir cavab almalı olar. Həmin o tutarlı cavab ilə də sözügedən məhkəmənin qərarındakı absurd məqamlar fakt və arqumentlərlə, sənədlərlə, sübutlarla göstərilər.

*İnam Hacıyev*

# Bizi gözləyən təhlükə:

# HEPATİT A



**Ölkəmizdə və dünyada yoluxucu xəstəliklər daim olub. Bilirik ki, bu xəstəliklər bir çox ciddi sağlamlıq problemlərinə səbəb ola bilir. Ümumi yoluxucu xəstəliklərdən biri də Hepatit A xəstəliyidir.**

Yeri gəlmişkən qeyd edək ki, ötən günlərdə Mingəçevirdə uşaqlar arasında virusa yoluxma aşkarlanaraq onların "Hepatit A" virusuna yoluxduğu bildirilib. Son bir həftə ərzində şəhərin müxtəlif ünvanlarında təsdiqlənmiş "Hepatit A" diaqnozu ilə Mərkəzi Şəhər Xəstəxanasından 6 nəfər barəsində Gigiyena və Epidemiologiya Mərkəzinə təcili bildiriş vərəqəsi daxil olub. Hər bir ünvanda həkim-epidemioloq tərəfindən dərhal araşdırma aparılıb. Nəticədə 3 xəstənin şəhərin Bahar küçəsində bir-biri ilə təmasda olduğu, ikisinin isə qohumluq əlaqəsi aşkarlanıb.

## Bəs, bu virusdan necə qorunaq? Hepatit A nədən yaranır?

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Hepatit A qaraciyər infeksiyası ilə xarakterizə olunur. Yoluxma xəstəliyi olan insanların nəcisi ilə təmasda baş verir. Gigiyena yoluxucu xəstəliklərdən qorunmaq üçün çox vacibdir. Həmçinin, peyvəndlə Hepatit A xəstəliyindən qorunmaq mümkündür.

## Hepatit A virusu nədir?

Hepatit A virusu bir növ RNT virusudur. İnsanlarda yoluxduqda qaraciyərə təsir göstərir. Qaraciyərdə infeksiyaya və sarılığa səbəb olur. İnsandan insana nəcislə ötürülür. Bu virusdan qorunmaq üçün gigiyenaya diqqət etmək lazımdır.

## Hepatit A xəstəliyi nədir?

Hepatit A xəstəliyi eyni adlı virusun insan orqanizminə daxil olması nəticəsində yaranan xəstəlikdir. Qaraciyərdə iltihablı bir vəziyyət meydana gəlir. Nəcislə keçən xəstəlik olduğundan natəmiz yerlərdə qida və içki qəbul edən insanlara keçmə ehtimalı yüksəkdir. Nəticədə müxtəlif simptomlar meydana çıxır. Bu simptomlar əsasən yüngül olsa da, bəzən ciddi qaraciyər problemlərinə və ölümə qədər irəliləyə bilər.



Hepatit A xəstəliyinin əlamətləri olan insanlar infeksionistə müraciət etməli və müayinədən keçməlidirlər. Klinik tapıntılar və qan testləri nəticəsində qəti diaqnoz qoyula bilər. Xəstəliyi müalicə etmək mümkün deyil. Ancaq insanı narahat edən əlamətlər müxtəlif dərmanlarla aradan qaldırıla və xəstəlik yüngülləşə bilər.

## Hepatit A necə ötürülür?

Hepatit A xəstəliyi insandan insana Hepatit A virusu ilə təmas nəticəsində ötürülür. Xəstənin nəcisi ilə təmasda olmaq, onun hazırladığı yeməkləri yemək çox risklidir. Bəzi qidaları çiy və ya az bişmiş istehlak etmək də risk yaradır. Bu həm də cinsi əlaqə yolu ilə keçə bilən bir virusdur.

## Hepatit A-nın ötürülmə yolları hansılardır?

- Hepatit A xəstəsi olan insanlarla birbaşa təmasda olduqda,
- Hepatit A olan insanların şəxsi əşyaları (dəsmal, eynək, paltar kimi) ilə təmasda olduqda,
- Çirkli və xlorsuz hovuzlarla,
- Nəcislə təmasda olan qidaları düzgün bişirilmədən istehlak etmək,
- Kanalizasiya sularının təmizlənmədən içilməsi səbəbindən
- Nəcislə təmasda olmuş meyvə və tərəvəzləri yaxşı yumadan istehlak etmək,
- Qida sənayesində çalışan insanlar təmizliyə fikir vermədiyi üçün Hepatit A virusu insandan insana keçə bilər.

## Hepatit A testi nədir?

Hepatit A diaqnozu əsasən xəstəliyin tapıntıları ilə qoyula bilər. Hepatit A testi qəti diaqnoz üçün istifadə olunur. Xəstəlik qanda IgM və IgG antikorlarının səviyyəsinə baxılaraq diaqnoz qoyulur. Bundan əlavə, antikor səviyyəsi sayəsində insanın daha əvvəl xəstəliyə tutulduğu və ya peyvəndin daha əvvəl edilib-edilmədiyi müəyyən edilə bilər. Bu testi həyata keçirmək üçün bədəndən alınan qanı normal şəkildə qiymətləndirmək kifayətdir.

## Hepatit A necə müalicə olunur?

Hepatit A üçün xüsusi müalicə və ya dərman yoxdur. Virusla təmasdan əvvəl peyvənd olunarsa, ömürlük xəstəlikdən qorunmaq mümkündür. Amma yoluxduqdan sonra müalicə ilə virusu bədəndən çıxarmaq mümkün deyil. Hepatit A virusunun səbəb olduğu qaraciyər infeksiyası nəticəsində bədəndə meydana gələn simptomlar müalicə edilə bilər. Qızdırma, halsızlıq, yorğunluq kimi əlamətlərə qarşı həkimin təyin etdiyi müalicə üsullarından istifadə edilir. Nəticədə virus zamanla təsirini itirir və simptomlar yox olur.

## Hepatit A-nın əlamətləri hansılardır?

Hepatit A xəstəliyi uşaqlarda bir çox simptomlara səbəb olmasa da, böyüklərdə ciddi təsirlər göstərə bilər. Başqa heç bir xəstəliyi olmayan sağlam və yetkin fərdlərdə bu xəstəlik yüngül simptomlarla aradan qaldırılır. Lakin risk qrupunda olan insanlarda xəstəliyin əlamətləri daha ciddidir.

Hepatit A xəstəliyinin simptomlarına aşağıdakılar daxildir:

- Yorğunluq,
- Zəiflik,
- Oynaq ağrıları,
- Qızdırma,
- Anoreksiya,
- Sürətli çəki itkisi,
- İshal,
- Mədə narahatlığı,
- Ürəkbulanma,
- Qusma,

Gözlərin və dərinin sararlması,
- Sidiyin tünd rəngi,
- Nəcisin ağımtıl rəngdə olması

## Hepatit A üçün yüksək risk altında olan insanlar kimlərdir?

Hepatit A-nın simptomları ümumiyyətlə yüngül olsa da, bəzi risk qruplarında xəstəlik ciddi mənfi nəticələrə səbəb ola bilər.

Yüksək risk altında olan insanlara aşağıdakılar daxildir:



- Qaraciyər xəstəliyi olanlar,
- Hepatit B, Hepatit C və ya Hepatit D olanlar,
- Qanaxma və laxtalanma pozğunluğu olanlar,
- İmmuniteti zəifləmiş, kimyaterapiya altında olan xərçəng xəstələri, orqan transplantasiyası gözləyənlər,
- QİÇS xəstəsi olanlar,
- Kanalizasiyada işləyənlər,
- Yoluxucu xəstəliklər və ya reanimasiya şöbələrində çalışan tibb işçiləri,
- Laboratoriya işçiləri,
- Qocalar evi və körpələr evi işçiləri,
-Narkomanlar

## Hepatit A peyvəndi

Hepatit A peyvəndi insanları Hepatit A virusundan qoruyur. Bu müalicəvi peyvənd deyil. Ona görə də xəstəliyə yoluxandan sonra bunu etmək fayda verməz. Ancaq xəstəlik ötürülməzdən əvvəl edilirsə, Hepatit A virusuna qarşı qorunma təmin edir və təmas zamanı virusun bədənə daxil olmasının qarşısını alır.

Türkiyədə Hepatit A peyvəndi uşaqlıq dövründə edilən rutin peyvəndlər qrupuna daxildir. İki müxtəlif dozada tətbiq olunur. Böyüklərin də bunu etməsinin heç bir zərəri yoxdur. Hepatit A peyvəndi əvvəllər vurulubsa və ya xəstəlik baş veribsə, təkrar peyvənd etmək lazım deyil. Hamilə qadınlar zəruri olmadıqca hamiləlik dövründə peyvənd etməməlidirlər.

*Ardı Səh. 11*

# Bizi gözləyən təhlükə: HEPATİT A




Əvvəli Səh. 10

## Hepatit A peyvəndi nə vaxt edilməlidir?

Hepatit A peyvəndi üçün yaş məhdudiyyəti yoxdur. Türkiyədə körpəlikdə tətbiq edilən peyvənd cədvəlinə daxildir. Doğuşdan sonra on səkkizinci aydan etibarən bunu etmək məqsədəuyğundur. Bu peyvənd müxtəlif vaxtlarda 2 dozada tətbiq olunur. Körpələrə vurulan digər peyvəndlərlə birlikdə vurulmasının heç bir zərəri yoxdur. Əzələdaxili olaraq Hepatit A peyvəndi adətən qol nahiyəsinə vurulur. Peyvənddən on beş gün sonra orqanizmdə antikorlar əmələ gəlir və peyvəndin qoruyucu təsiri başlayır.

Yetkinlər də hepatit A peyvəndi ala bilərlər. Bununla belə, Hepatit A virusuna qarşı immuniteti olan insanların bu peyvəndi alması tələb olunmur. Çünki bu insanların artıq Hepatit A virusuna qarşı müdafiəsi var. Bu səbəbdən, Hepatit A peyvəndi vurdurmağı düşünən böyüklər əvvəlcə qan testi edərək immun statuslarını yoxlamalıdırlar. Hamilə qadınlar bu peyvəndi hamiləlik zamanı zəruri olmadıqca vurdurmamalıdırlar.

## Hepatit A peyvəndinin yan təsirləri hansılardır?

Hepatit A peyvəndinin yan təsirləri ümumiyyətlə yüngüldür. Bütün digər peyvəndlərdən sonra baş verə biləcək yan təsirlər Hepatit A peyvəndindən sonra da baş verə bilər. Tətbiq sahəsində dəri qızartı, həssaslıq və şiş ola bilər. Qızdırma, mədə pozğunluğu və yorğunluq da baş verə bilər. Uzunmüddətli və ciddi yan təsirlər baş verərsə, mümkün qədər tez həkimə müraciət edilməlidir.

## Ağız, Diş Sağlamlığı və Hepatit

Ağız sağlamlığında yoluxuculuq dərəcəsi ən yüksək olan xəstəliklərdən biri də hepatit B və C-dir. Bunun üçün diş həkimləri hepatit peyvəndi olmalıdırlar. Ağızla birbaşa təması olan bu işdə qanaxma normaldır. Bu səbəbdən hepatit B peyvəndi olmayan həkimlərdə virusun bir damladan ötürülmə riski əhəmiyyətli dərəcədə artır. Çox yüksək riskə malik olan diş həkimləri həm xəstənin sağlamlığı, həm də öz sağlamlıqları ilə bağlı diqqətli olmalıdırlar. Xəstələr hepatit olduqlarını əvvəlcədən həkiminə bildirməlidirlər. Çünki bir çox xəstələr belə hallarda bunu gizlədirlər.



## Hepatitli xəstələrin dişləri necə müalicə edilməlidir?



Diş həkimləri müalicəyə çox həssas yanaşmalıdırlar. Xəstələr diş şikayətləri ilə gəldiyində hepatit xəstəliyinin olduğunu bildirmək müalicə üçün mühüm addım olacaq. Belə olan halda həkimlərin əlcək və maskalardan istifadə etməsi yaxşı olar. Əlcək və maskadan əlavə, həkimin eynəkdən istifadə etməsi də lazımdır. Çünki bir damla qan belə xəstəliyə yoluxmağa böyük təhlükə yaradacaq.

## Hepatitli xəstələrdə diş problemləri varmı?

Hepatit virusu daşıyan xəstələrdə görülən əsas nümunə qan xəstəlikləridir. Yəni, qanın laxtalanmasında problemlər yaranır. Bu problemlər diş ətində qanaxmaya səbəb ola bilər. Baş verə biləcək risklər arasına qanaxma, ağızlarında qoxu və iltihab daxildir. Belə hallarda diş müalicəsi ilə yanaşı qanaxmaya səbəb olan başqa bir xəstəlik də (hepatit) nəzarət altında saxlanılmalıdır. Çünki qanaxmanın əsas səbəbi hepatitdir.

İstifadə olunacaq dərmanlarla bağlı xəstənin həkimi ilə əlaqə saxlanmalıdır. Bundan əlavə, diş fırçalama və təmizləmə prosedurlarına da ciddi yanaşmaq lazımdır.

**Milli Məclisin Səhiyyə komitəsinin üzvü, deputat Müşfiq Məmmədli:** "Hepatit A virusu hava yox, damcı yolu ilə yoluxan infeksiyadır. Ona görə də burada qidalanmanın keyfiyyəti və xüsusən kontaktlarda əl gigiyenası, şəxsi gigiyenaya riayət etmək lazımdır Həmçinin, su mənbələrinin keyfiyyətli olması çox önəmlidir. Bu baxımdan məktəblərdə qida rejiminə riayət olunması da çox vacibdir.



Aşkarlanma yerində isə ciddi epidemik tədbirlərin görülməsi çox vacibdir. Bu epidemik tədbirlər hepatit A xəstəliyinin yayılmasının qarşısını alır. Çünki Hepatit A-nın xüsusən məktəblilərdə olmasının təhlükəli cəhəti ondan ibarətdir ki, sıx kontakt nəticəsində damcı yolu ilə bu infeksiyanın yayılma ehtimalı çox olur və sürətli yoluxmalarla qarşı-qarşıya qala bilərik. Ona görə də dezinfeksiyaedici tədbirlər çox mühümdür.

Su mənbələri ciddi nəzarət altına götürülməlidir. Bu çox önəmlidir. Bu da müvafiq icra sturukturları və sanitar epidemoloji stansiyalarla təhsil müəssisələri qarşılıqlı əməkdaşlıq etməlidirlər.

Hal-hazırda ölkə üzrə epidemik vəziyyəti analiz etsək, narahatlıq yaradan məqam yoxdur. Mövsümi şəkildə yoluxmalar aşkarlana bilir. Hansısa şəhərdə yoluxma olması gələcəkdə risk amili yaradır. Buna görə də dediyim amillər təcili və ciddi şəkildə həyata keçirilməlidir".




*Ayşən Vəli*

ŞƏRH+AKTUAL

# Prezidentin Ermənistana mühüm mesajı

*İlham Əliyev: "Nəticə eyni olacaq..."*

**Ermənistanın Azərbaycana qarşı yeni müharibə sindromu artmaqda davam edir. Belə ki, Hindistanın artilleriya sistemləri istehsalçısı "Bharat Forge" özüyeriyən MArG 155 haubitsalarının Ermənistana çatdırılacağını açıqlayıb. Sözügedən hərbi texnikaların, xüsusən, dağlıq ərazilərdə effektiv olduğu da bildirilməkdədir.**



Rəsmi İrəvanın Qərbdən və digər havadarlarından, necə deyərlər, "müharibə etmək vüsətini" alması, Azərbaycana qarşı savaş ritorikasına əl atması ilə bağlı mətbuata fikir bildirən hərbi ekspert Ədalət Verdiyev qeyd edib ki, Ermənistanın yenidən silahlanmaya ciddi vəsaitlər ayırması onun sülh müqaviləsinin imzalanmasına hazırlaşmadığını göstərir:

**Ədalət Verdiyev: "Ermənistan regionda sülhün əldə edilməsində maraqlı deyil. O, yaxın perspektivdə hücum silahları arsenalını gücləndirmək və bununla da Azərbaycana qarşı təxribatlara, toqquşmalara münbit şərait yaratmaq niyyətindədir"**

"Hindistan və Fransadan müdafiə silahları aldığını elan edən rəsmi İrəvana, eyni zamanda, hücum xarakterli silahların da çatdırıldığının şahidiyik. Bu, bir daha onu göstərir ki, Ermənistan regionda sülhün əldə edilməsində maraqlı deyil. O, yaxın perspektivdə hücum silahları arsenalını gücləndirmək və bununla da Azərbaycana qarşı təxribatlara, toqquşmalara münbit şərait yaratmaq niyyətindədir".

Ədalət Verdiyevin fikrincə, alınan silahların miqyası rəsmi İrəvana Vətən müharibəsində itirdiyi silah və texnikaların yerini doldurmağa, həmçinin, Azərbaycanla güc balansında müsbət dəyişikliyə imkan vermir: "Hindistan və Fransadan müdafiə silahları aldığını elan edən rəsmi İrəvana, eyni zamanda, hücum xarakterli silahların da çatdırıldığının şahidiyik. Bu, bir daha onu göstərir ki, Ermənistan regionda sülhün əldə edilməsində maraqlı deyil. O, yaxın perspektivdə hücum silahları arsenalını gücləndirmək və bununla da Azərbaycana qarşı təxribatlara, toqquşmalara münbit şərait yaratmaq niyyətindədir".

**Hərbi ekspert: "Heç şübhəsiz, Ermənistanın silah-sursatı, digər ölkələrdən alınan hərbi texnikaları ordumuzun şəxsi heyətinin həyat və sağlamlığına təhdid yaradacağı məsafəyə yaxınlaşdıqda onlar qətiyyətlə məhv ediləcək"**

"30 illik işğal tarixi olan ölkənin yenidən silahlandırılması həm Fransa, həm də Hindistanın Qafqazda sülhə, sabitliyə zərbə vurmaq, mümkün sülh danışıqlarını sıfırlamaq məqsədini göstərir. Rəsmi İrəvanın bu fəaliyyəti istənilən halda Azərbaycan tərəfindən adekvat cavab tədbirləri ilə qarşılanacaq. Heç şübhəsiz, Ermənistanın silah-sursatı, digər ölkələrdən alınan hərbi texnikaları ordumuzun şəxsi heyətinin həyat və sağlamlığına təhdid yaradacağı məsafəyə yaxınlaşdıqda onlar qətiyyətlə məhv ediləcək", - hərbi ekspert vurğulayıb.



**Yekun ismarıc: "Üç il bundan əvvəl Fransa onlara kömək etdi? Xeyr. İki ay bundan əvvəl onlara kömək etdi? Xeyr. Onlar burada nə edə bilərlər. Heç nə!"**

Bu arada, Azərbaycan Prezidenti İlham Əliyevin iraqlı həmkarı Əbdüllətif Camal Rəşidlə görüşü zamanı mühüm bəyanatını da vurğulayıb.

"Ermənistan yeni bir müharibəyə başlamaq qərarı versə, bu, ona kömək etməyəcək. Nəticə eyni olacaq. Heç kəs onlara kömək etməyəcək. Üç il bundan əvvəl Fransa onlara kömək etdi? Xeyr. İki ay bundan əvvəl onlara kömək etdi? Xeyr. Onlar burada nə edə bilərlər. Heç nə!", - deyə dövlətimizin başçısı rəsmi İrəvana mesaj yollayıb.

Beləliklə, Ermənistan rəhbərliyi bir daha dərindən düşünməli və bu dəfə özünün tam olaraq xəritədən silinməməsi üçün Prezident İlham Əliyevin sözlərinə əməl etməlidir. Əks halda...

***Afət Tahirqızı***

# Ömrümüzdən ötən PAYIZ... DÜŞÜNCƏLƏR

**Ömrümüzdən gəlib-keçən neçə-neçə payızdan biri də budur, ötməkdədir. Onunla şəhərimizin hər gün yüzlərlə insanın keçdiyi küçə, meydanlarında, park və xiyabanlarında qarşılaşırıq. Sanki bir tablodur, qarşısında dayanmış və seyr edirik. Bu tablonun "müəllifi" iki aydır, yayın geri çəkilib, yerini öz "əlləri" ilə təhvil verdiyi payızın özüdür. Elə mənzərələr var ki, bu tabloda, baxdıqca doya bilmirsən...**



Budur, ağacların ağ saçlara dən düşmüş kimi, yaşıldan sarıya çönən yarpaqları hələ də özünü payızın solğun günəşinə təslim etməyib yaşıllığını saxlayan otların üstündə qəribə bir harmoniya yaradıb. Bir azdan xəfif bir külək əsir - payız küləyi. Xəzəl ömrü yaşayan yarparların havada rəqsinə bax... Bu külək payızın hələ tam hakim kəsilə bilmədiyi ağaclardan yalnız zəif olanları-sarı yarpaqları qoparıb alır qarşısına.

Küçələrdə, səkilərdə bir-biri ilə sanki "qovala-qaç" oynayır yarpaqlar, biri qaçır, o birilər düşür onun ardınca. Nəhayət, toplaşırlar özlərinə sığınacaq sandıqları bir divarın dibinə, bir ağacın altına. Bu dəfə artıq külək yarpaqları yerindən qopara bilmir, lakin onun təsirindən adamın qulağında bir-birinə toxunan xəzəllərin "xışıltı" adlı nəğməsi səslənir.

Gözlərin önündə, həqiqətən də, baxmaqla doyulmayan bir tablo var - payız tablosu. Səhərdən bəri şəhərimizdəki parklardan birində qarşısında dayandığım bu canlı tablonu daha bir qədər də seyr etmək üçün skamyalardan birində əyləşirəm.

Bir-birini əvəz edən mənzərələr məni xəyalən 3 il əvvələ aparır- 44 günlük o payıza-Qarabağda Zəfər qazandığımız payıza 30 il Qarabağa kabus kimi çökən, baharın gəlməsini əngəlləyən o payıza... İşğal altında olan baharsız torpaqlarımızın payızına Axı bu torpaqlar qovmuşdular baharı da, yayı da. Onlar bir qışla, bir də ki, payızla qəm ortağı, kədər yoldaşı olmuşdular. Azad olunanadək günəşsiz qalacaqlarına, baharın allı-güllü yaylığını başlarına salmayacaqlarına söz vermişdilər. Beləliklə də bu torpaqlara bir payız, bir də qış hakim olmuşdu. Günəşsiz payız, soyuq, sazaq, saralmış yarpaqlar, bir də ağappaq qar...

Qarabağ doğmasının ayaqlarını sinəsində duyanda baharı çağıracaqdı, çəməninədüzünə al-əlvan güllərini səpələyəcəkdi. Başından qara örpəyini çıxarıb, al rənglisini salacaqdı.

2020-nin 44 günü- 44 günlük payızı, 30 illik bu yurdlara hakim payız özü öz əllərilə gətirdi baharı bu ellərə. Bir qərinəyə yaxın hökmranlığım ta bəsdir, dedi. Çəkildi bir kənara, yerini verdi o soyuqda, o sazaqda allı-güllü bahara. Minlərlə oğlumuzun-igid, qəhrəman övladlarımızın gəlişi ilə Qarabağa günəş doğdu. Torpaq, yurd-yuva, el-oba üçün axan qanlar çəmənlərin-düzlərin al-əlvan güllərinə, çiçəyinə döndü. Üçrəngli bayrağımız azad edilən yurdların başı üstündə dalğalandıqca, bu ellərə nəfəs gəldi, yaşamaq həvəsi gəldi.

Payız payızlığını göstərdi. Xəzəli ilə bircə anlıq yuxusunda əsgərimin başının altına yastıq, üstünə yorğan oldu. Özünü tutdu, saxladı, yağışlarını çox yağdırmadı. Palçıq olar, əsgərimə əngəl olar, deyə... Əksinə, bir kənara çəkilərək baharı səslədi. Lakin bahar vaxtı olmadığından əsgərim üşüdü də, dondu da, lakin bir addım da çəkilmədi. Ruhundakı baharla-günəşlə payızı-onun sazağını dəf etdi. İrəliyə-irəliyə gedərək torpaqları yağıdan bir-bir azad etdi.

Payız ana oldu 44 gündə- Payız ana. Torpaq üçün canlarından keçərək şəhid olan övladları anasından əvvəl payız aldı qucağına. Oxşadı, öpdü üz-gözündən, göz yaşını leysan edib axıtdı üzlərinə. Minlərlə şəhidimə bayatı qoşdu, minlərlə qazimi qoynuna aldı, gizlətdi, ölməyə qoymadı.

Payız fəsillər fəsli oldu 44 gündə. 30 ilin işğalının sonu oldu Qarabağda. Elə o ildən də payız fəsillərin tacı oldu. Şəhidimizin şahidi kimi, Zəfərimizin də şahidi oldu.

***

Heç bir manea rəqslərinə, qaçışmalarına xələl gətirməyən yarpaqların xışıltısı, bir də toran vaxtı olduğu üçün küçə işıqlarının bərq vurması ilə xəyallardan ayrılır, ətrafa nəzər salıram. Daha valehedici mənzərələrlə qarşılaşıram: işıq şüaları üzərinə düşən yarpaqların parıltısı, qızılı-sarı yarpaqların skamyaların üzərindəki gözəl xalı görüntüsü, yanımdan dəstə-dəstə ötən insanların payızın xoş mənzərələrini bir-birilərinə göstərərək onu körpə bir uşaq kimi oxşamaları... Bir qədər aralıda qoca, cavan, uşaq-bir xeyli adamın bu təmiz havanı ciyərlərinə çəkmək üçün gəzişdikləri və addımların xəzəlin yeni bir "nəğməsini" yaratdığını...

Qalxıram... Sıx ağacların cərgəsi önündə addımlayıram. Payızın yeni bir nəğməsini dinləyə-dinləyə addımlayıram. Bu nəğmə payızın qürur nəğməsidir. Payız fəxr edir Qarabağ qələbəsi ilə, o qələbəyə şahidlik etməsi ilə. O qələbənin onun qoynunda qazanılması ilə...

Payız yeni bir qələbəsi ilə də fəxr edir. Axı bu il sentyabrın 19-da Qarabağda keçirilən birgünlük antiterror əməliyyatı da onun gəlişi ərəfəsinə təsadüf etdi. Biz Xankəndini, Xocalını, Xocavəndi, Ağdərəni... də elə payızda düşməndən azad etdik. Dinlədiyim nəğmədə bütün bunlar həzin-həzin misralanıb, bəndləşib, gözəl, könülləri oxşayan, qəlblərə qürur, sevinc dolduran bir nəğməyə çevrilib. Bu nəğmə payızın əsrarəngiz tablosu qarşısında onun füsnunu bir qədər də gözəlləşdirir. Baxdıqca doyulmaz, gözləri, könülləri oxşayan edir: Zəfər fəslini, qürur fəslini, rənglərin harmoniyası ilə özü öz rəsmini çəkən payız fəslini...

***Mətanət Məmmədova***

# Erməni vəhşiliyi BMT-ni də narahat etməyə başlayır



Dünya yaranandan insanlığa qarşı düşmən mövqedə dayanan toplumlar olub və bu gün də onların soyundan olanlar eyni fəaliyyəti nümayiş etdirməkdədirlər. İnsanlığa düşmən kəsilən toplumlar arasında ermənilər qorxulu və vəhşi toplum hesab olunurlar. Bu toplumun hər biri potensial terrorçudur və ya terror etməyə meyillidir. Bəzən ermənilər əyinlərinə keşiş paltarı geyinib, iri şəhərlərdə terror aktları törədiblər, yüzlərlə insanın ölümünü həyata keçiriblər. Hələ 17-ci və 18-ci əsrlər də onların dini mərkəzi olan Eçmiədzin kilsəsinin əsas işi bölgədə pozucu rol oynamaq olub. Erməni katolikosları özlərini humanist mövqeli tərəf kirni göstərərək vaxtaşırı İrəvan xanlığına hücumlar təşkil edib, qarətlər, yanğınlar törədən Kartli Kaxetiya çarlığı ilə İrəvan xanlığı arasında vasitəçilik etməyə çalışıblar. Məkrli məqsədləri elə hər iki tərəfdə ermənilərin sakit yaşayışını və xarici ölkələrdən köçürülməsini təmin etməkdən ibarət olub. Müəyyən hallarda çarlığa təlimatlar və satqınlıqları hesabına Karte-Kaxetiya çarlığının İrəvan xanlığına hücum etməsinə nail olmuşlar. 1780-ci ildə Karte-Kaxetiya çarlığının İrəvan xanlığına hücum etməsində erməni kilsəsinin xüsusi rolu olmuşdur. Nəticədə, İrəvanın məhv edilməsinin qarşısını almaq üçün xanlığın Karte-Kaxetiyada siyasi asılılıqda olmasına razılıq verməklə yanaşı, hər il çarlığa vergi verməyə vəd verilmişdir. Yalnız Osmanlı imperiyasının yardımından sonra düşmənə çevrilən qonşular İrəvan üzərində iddialarından əl çəkmişlər. Bundan sonra İrəvan xanlığı əvvəlki iqtisadi qüdrətini bərpa edə bilmişdir. İrəvan xanlığında yaranan sakitlik bir qədər sonra İran şahlarının xanlığa olan hücumları ilə pozulmuşdur. 1795-ci ildə Ağa Məhəmməd xan Qacar İrəvan xanlığına hücum edərək Mirmehdi xanın nəvəsi Məhəmməd xanı hakimiyyətdən devirərək onun yerinə Əliqulu xanı İrəvan xanı təyin etmişdir. Amma Əliqulu xanın da hakimiyyəti uzun çəkməmişdir. 1979-cu ildə Ağa Məhəmməd xan Qacarın öldürülməsindən sonra Məhəmməd xan Əliqulu xanı devirərək İrəvanda hakimiyyəti ələ almışdır.





### İrəvan xanlığında yaşayan əhalinin 90 faizi azərbaycanlılar olmuşdur

O dövrün tarixi sənədlərinə əsasən, demək olar ki, İrəvan xanlığında yaşayan əhalinin 90 faizi azərbaycanlılar, 10 faizini isə erməni, gürcü və digər xalqların nümayəndələri təşkil etmişlər. 1897-ci ildə Rusiya imperiyasının Qafqazda, eləcə də, İrəvanda əhalinin siyahıya alınması zamanı əldə olunan məlumatlarda Qarabağda, əsasən, azərbaycanlıların yaşadıqları təsdiq olunub. Belə ki, siyahıya alınmaya görə xanlıqda 313 min 178 azərbaycanlı 11 min 317 nəfəri ermənilər yaşamışdı. 1817-ci və 1819-cu illərdə İrəvanda olmuş ingilis arxeoloqu və səyyahı Robert Kerr Ports yazırdı ki, İrəvan xanlığının uzunluğu 200 mil, eni isə 100 mildir. Müasir erməni tarixçisi T.Akopyan da İrəvan xanlığının əhalisinin əsasən azərbaycanlılardan ibarət olduğunu və ərazisinin 24 min kvadratmetr olduğunu yazırdı. İrəvan şəhəri inzibati cəhətdən 3 məhəlləyə bölünürdü: şəhər məhəlləsi, Topbaşı məhəlləsi və Dəmirbulaq məhəlləsi. İrəvan xanlığında türkdilli azərbaycanlıların yerli xalq olması sübuta yetirilmiş faktdır. Bunu Qafqazın ali baş komandanı general Paskeviç rəsmi məlumatlarda da qeyd etmişdir. İrəvan qalasını çox çətinliklə alan general Paskeviç İrəvan xanlığında əhalinin milli tərkibi haqda verdiyi məlumatda burada 10 min azərbaycanlı, 3 min erməni ailəsinin yaşadığını qeyd etmişdir.

### Professor Castin Makkarti yazırdı

ABŞ-dan olan professor Castin Makkarti Rusiya işğalına - 1828-ci ilə qədər İrəvan xanlığı əhalisinin 80 faizinin azərbaycanlı olduğunu göstərir. S.Şopen 1828-1832-ci illərə qədər İrəvan xanlığında əhalinin mütləq çoxluğunu müsəlmanların, yəni azərbaycanlıların təşkil etdiyini yazmışdır. Onun hesablamalarına görə, İrəvan əyalətində 16.075 ailə (81.749 nəfər) müsəlman, 4.428 ailə (25.151 nəfər) isə erməni idi. Müsəlman dedikdə S.Şopen azərbaycanlıları və müsəlman kürdləri nəzərdə tutur. 18-ci əsrin ortalarında Azərbaycanın Qərbində yaradılan qüdrətli xanlıqlardan biri də Qarabağ xanlığı olmuşdur. 1748-ci ildə Pənahəli xan Cavanşir tərəfindən yaradılan Qarabağ xanlığı Kürlə Araz çayları arasında yerləşmiş, ətrafı sıldırım keçilməz qayalar, yaşıl meşələrlə əhatə olunmuşdur. Pənahəli xan Qarabağın göz oxşayan səfalı yerini mərkəz seçərək, orada Qarabağın qala qapısı hesab olunan Şuşa şəhərini Qarabağın paytaxtı olaraq inşa etdirirdi. Qarabağ xanlığının ərazisində də İrəvan xanlığının ərazisində olduğu kimi, Cavanşir, Otuzdilər, Cəbirli, İyirmi dörd, Baharlı, Ziyadoğullar və bu kimi məhəllələrin tikilməsi və onların da idarə etməsini naiblər tərəfindən həyata keçirilməsi bu ərazilərdə türk adət-ənənələrinin və idarəetmə üsulunun dəyişməz olduğunu göstərir. 106 Qafqazda imperiyalar və ermənin Azarbaycan ərazilərinə köçürülməsi Pənahəli xanda dərin zəka, yüksək idarəetmə qabiliyyətinin olması və hərbi bilikləri mükəmməl şəkildə mənimsəməsi Qarabağın siyasi, hərbi, iqtisadi qüdrətinin artmasına səbəb olmuşdur. O, müdrik siyasət yürüdərək qonşu dövlətlərlə dostluq əlaqələri qurmuşdur. Bununla yanaşı, xan düşmən hücumlarından ehtiyat edərək Qarabağı, xüsusi ilə də paytaxt Şuşa ərazisini qalalarla, istehkam sədlərlə möhkəmləndirmişdir. Məhz Pənahəli xanın göstərişi əsasında 1748-ci ildə Barat, 1751-ci ildə Şahbulaq, 1750-ci ildə isə Şuşa qalası inşa edilmişdir. Bu dəfə də ermənilər məkrli, satqın, xəyanətkar fəaliyyətlərini davam etdirməklə möhkəmlənməkdə olan Qarabağ xanlığına təhlükələr yaratmağa çalışırdılar.

### Pənahəli xan haqlı olaraq erməni toplumunu cəzalandırdı

Ermənilərin satqınlığını, xəyanətini bağışlamayan Pənahəli xan onları cəzalandırmaq qərarına gəlir. Sarayda məclis quran Pənahəli xan satqın erməni məliklərini ora dəvət edir. Xan erməni məliklərinin xəyanətini sübut etdikdən sonra onlardan beşini şəxsən özü məhv edir, qalanlarını isə ömürlük həbsdə saxlanılması üçün Ərbədil xanına təhvil verir. Sarayda keçirilən məclisdə erməni məliklərini zərərsizləşdirməsindən sonra ətrafdakı ermənilər də Pənahəli xandan qorxmağa, onun əmrlərinə tabe olmağa başlamışlar. Məhz bundan sonra Pənahəli xan Qarabağın ərazilərini genişləndir. Bunun da nəticəsində Pənahəli xan İrəvan, Gəncə, Naxçıvan və Ərdəbili Qarabağ xanlığına birləşdirə bilmişdir. Təbii ki, Qarabağın ərazisinin genişlənməsi fonunda xanlığın güclənməsi İran şahını ciddi narahat etmişdir. Məhz bu narahatlığı aradan qaldırmaq və xanlığı məhv etmək üçün 1757-ci ildə Məhəmmədhəsən xan Qacar Qarabağa hücum etmişdir. Tarixdə "Xatın arxı" kimi adı qeyd olunan ərazidə gedən döyüşlərdə Pənahəli xan böyük iştaha və iddialarla xanlığa hücum etmiş Məhəmməd xan Qacarı məğlub etmişdir. Bu döyüşdə Pənahəli xan şəxsi şücaət, yüksək döyüş nümunəsi göstərmişdir. Darmadağın edilən İran qoşununun tör-töküntüləri qaçarkən o dövr üçün çox əhəmiyyətli hesab olunan 150-yə yaxın tüfəngi, 5 ədəd isə topu döyüş meydanında qoyub qaçmışlar. Bu biabırçı məğlubiyyətdən sonra İran şahı Qarabağ xanını açıq döyüşdə məğlub etməyin mümkün olmadığını başa düşdüyündən Pənahəli xanı hiyləgərlik yolu ilə sıradan çıxartmağa cəhd göstərmiş və istəyinə də nail olmuşdur. Belə ki, Məhəmmədhəsən xan Qacardan sonra hakimiyyətə gələn Kərim xan Zənd Urmiyyə qalibiyyətini zəfər günü kimi qeyd etmək üçün "Şiraz qonaqlığına dəvət edir. Bu qonaqlıqda Pənahəli xan girov götürülür. Pənahəli xanın İran şahının hiyləgərliyinin qurbanı olmasından sonra Qarabağda hakimiyyət uğrunda mübarizə başlayır. Bu mübarizə daha çox İbrahimxəlil xan və Mehrəlibəy arasında gedir. Amansız döyüş İbrahim xanın Mehrəli bəyin üzərində qalibiyyəti ilə başa çatır. İbrahimxəlil xanın hakimiyyətdə olduğu 1763-1806-cı illəri Qarabağın inkişaf tərəqqi dövrü hesab etmək olar.

### Qarabağ xanlığının inkişaf tarixi

O dövrdə Qarabağın hərbi iqtisadi qüdrəti gürcü çarları ilə yanaşı, Rusiyaya ilan zəhəri verən erməni məliklərini də ciddi narahat etmişdir. Ona görə də, bu qüvvələr Qarabağa hücum təşkil etmək üçün birgə iş planı qururlar. Amma 1787-1795-ci illərdə Rusiya ilə Osmanlı imperiyası arasında müharibənin başlanması birləşmiş qüvvələrin Qarabağa planlaşdırılan hücumlarının qarşısını almışdır. Bununla da Qarabağ xanlığı inkişafını və hərbi qüdrətini artırmaqda davam etdirmişdir. Amma bir həqiqət var ki, məkrli düşmən heç zaman yatmır. Düşmən hər zaman bölgənin aparıcı xanlıqlardan olan ərazini işğal etmək, insanları isə məhv etmək üçün fürsət gəzir. Bax, bu fürsəti əldə edən Rusiya, Gürcüstan və erməni məlikləri 1806-cı ilin iyunda İran şahının Şuşaya hücum etməsindən istifadə edərək Qarabağın ərazilərini işğal etməyə başladılar. Hətta Şuşadakı rus qarnizonunun rəisi mayor Lisamoviç Cıdır düzündə ailəsi ilə yaşayan İbrahimxəlil xanı xaincəsinə qətlə yetirir. Bununla da Qarabağ Rusiya imperiyasının işğal zonasına çevrilir.



**İ.ƏLİYEV**

# Ermənistanın məğlubiyyəti:

## Beynəlxalq Məhkəmənin qərarı haqda əcnəbi ekspertlər nə deyir?












**Beynəlxalq Ədalət Məhkəməsinin Ermənistanın iddiası ilə bağlı çıxardığı hökm Bakını sevindirdi, İrəvan isə, öz növbəsində, son vaxtlar Qərbdən aldığı mənəvi dəstəyə baxmayaraq, açıq şəkildə məyusdur.**

Bakı Beynəlxalq Məhkəmənin "Ermənistan Azərbaycana qarşı" işi üzrə 17 noyabr 2023-cü il tarixli İrqi ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında Beynəlxalq Konvensiyanın (CERD) tətbiqi ilə bağlı müvəqqəti tədbirlər haqqında qərarını alqışlayır. Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin məlumatında deyilir. Mesajda məhkəmənin qərarının Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü, Qarabağ üzərində suverenliyini təsdiq etdiyi vurğulanır. "Məhkəmə Azərbaycanın bütün hərbi və hüquq-mühafizə orqanlarının Qarabağ bölgəsindən çıxarılması ilə bağlı əsassız və absurd tələbi rədd edib", - Azərbaycan XİN-in bəyanatında deyilir.

Məhkəmənin göstərdiyi tədbirlər Azərbaycan hökumətinin Qarabağın erməni sakinlərinə qarşı artıq bəyan edilmiş siyasətini nəzərə alır. Buraya Bakının milli mənşəyindən asılı olmayaraq regionun bütün sakinlərinin təhlükəsizliyini təmin etmək öhdəliyi daxildir. Azərbaycan heç vaxt erməni sakinlərini Qarabağdan çıxarmayıb və Bakının bölgəni tərk etmək çağırışına baxmayaraq, onlar özləri Ermənistana köçmək qərarına gəliblər,- XİN qeyd edir.

Məhkəmə BMT və BQXK missiyalarının Qarabağa səfəri üçün heç bir tədbirin görülməsini tələb etməyib ki, bu da Azərbaycanın bu sahədə beynəlxalq əməkdaşlığının tanınmasıdır. Azərbaycan milli qanunvericiliyə və beynəlxalq öhdəliklərə uyğun olaraq şəxsi mülkiyyəti, mədəniyyət abidələrini, artefaktları və qeydiyyat sənədlərini qoruyur. Belə ki, məhkəmənin bu mövzuları qeyd etməməsi, həm də Azərbaycanın həyata keçirdiyi tədbirlərin təsdiqidir",- deyə məlumatda bildirilir.

Məhkəmə həmçinin Ermənistanın separatçı rejimin nümayəndələrinə qarşı istintaq hərəkətləri ilə bağlı vəsatətini təmin etməyib. Onlar ölkənin Cinayət Məcəlləsinə əsasən separatizm və terrora dəstək ittihamı ilə saxlanılıblar.

Maraqlıdır, Ermənistanın davamlı olaraq beynəlxalq orqanlara təqdim etdiyi Azərbaycana qarşı bu cür iddiaların ümumi mənası nədir? Axı reaksiya proqnozlaşdırıla bilər- hətta Bakının hər hansı hərəkəti müəyyən qədər pislənilsə belə, bu, praktiki mənada Azərbaycan üçün heç bir xüsusi nəticələrə səbəb olmayacaq. Ölkə öz ərazi bütövlüyünü bərpa edib- bu, onun hüququdur. Ermənilərin Qarabağı tərk etməsi də onların haqqıdır. Onları oradan heç kim qovmayıb, vətənə qayıtmasına heç kim mane olmur- İrəvanın buna qarşı heç bir arqumenti yoxdur və beynəlxalq məhkəmə strukturları da bunu çox gözəl görür.

Tanınmış xarici müşahidəçilər "Caliber" analitik mərkəzinin sorğusu əsasında bu vəziyyəti şərh ediblər. Ekspertlərin fikirlərini oxucularımıza təqdim edirik.

Hərbi və siyasi elmlər doktoru, professor Vaxtanq Maisaya (Tbilisi) qeyd edir ki, Beynəlxalq Məhkəmənin qərarından aydın olur ki, beynəlxalq hüquqa uyğun olaraq, ərazi bütövlüyü və dövlət suverenliyi əsas prioritet olaraq qalır.

"Mən deyərdim ki, Ermənistanın bu cür cəhdləri məğlubiyyət sindromunun sübutu kimi qiymətləndirilə bilər. O, hərbi mənada və Qarabağ separatçılarını dəstəkləməkdə üzləşdiyi uğursuzluğu hansısa yolla kompensasiya etmək istəyir",- ekspert bildirib.

Professor hesab edir ki, bundan sonra separatizmə yanaşma dəyişir.

"Separatçılar artıq azadlıq döyüşçüləri hesab edilmir, bunu Beynəlxalq Məhkəmə Azərbaycan ordusunun Qarabağda sentyabrda keçirdiyi antiterror əməliyyatı zamanı həbs edilmiş separatçı liderlərin azad edilməsi ilə bağlı İrəvanın tələbini təmin etməkdən imtina edərkən təsdiqləyib. Hesab edirəm ki, aqressiv separatizm artıq beynəlxalq ictimaiyyət tərəfindən asimmetrik təhdid növlərindən biri kimi tanınıb. Beynəlxalq Məhkəmənin indiki qərarı da bunun təsdiqidir. Bu, yeri gəlmişkən, hələ də ərazi bütövlüyü ilə bağlı problem yaşayan digər ölkələr üçün yaxşı siqnaldır. Mən ilk növbədə öz ölkəmi, Gürcüstanı nəzərdə tuturam.

Və onu da əlavə edim ki, Beynəlxalq Məhkəmənin bu hökmü Qarabağın Azərbaycan dövlətinin ixtiyarına qaytarılmasının yekun aktı sayıla bilər", - deyə Maisaya yekunlaşdırıb.

"Mən görürəm ki, Ermənistan beynəlxalq hüquqi sənədlərdən istifadə edərək Qarabağda öz siyasi məqsədlərinə çatmaq üçün onlardan yararlanmağa çalışır", - deyə isveçli fəlsəfə doktoru Qreq Saymons öz növbəsində bildirib.

Onun sözlərinə görə, Ermənistan silahlı qüvvələrinin İrəvanın iradəsinə və siyasətinə əməl etməsini təmin etmək üçün lazımi imkanlara malik olmadığı göz qabağındadır.

"Beynəlxalq Cinayət Məhkəməsinin bu yaxınlarda aşkar siyasiləşdirilməsini və çox şübhəli hüquqi əsaslarla prezident Putinə qarşı son həbs orderini nəzərə alsaq, Ermənistan ölkənin Qərbə açıq-aşkar sürüşməsini nəzərə alaraq, onun xeyrinə oxşar siyasi motivli hüquqi qərarın veriləcəyinə ümid edə bilərdi. Lakin bu dəfə simvolik "qələbə" onlardan qaçdı", - isveçli ekspert bildirib.

***Tərcümə - Elçin Bayramlı***

# İmplant:

## baha qiymət, ömürlük diqqət

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*









***İtirilən dişlər yalnız estetik görünüşə xələl gətirmir, həm də sağlamlığa mənfi təsir göstərir. Bu gün inkişaf edən texnologiyalarla əskik dişlər həm protez, həm də implant üsulu ilə qısa müddətdə bərpa edilir. Cəmiyyətdə implantlarla bağlı təzadlı fikirlər var, amma mütəxəssislər hesab edir ki, implant tətbiqi yalnız təcrübəli həkimlər tərəfindən edilərsə heç bir zərəri olmur, çünki çənəyə yad cisim birləşdirilməsi bütün orqanizmin sağlamlığı üçün böyük əhəmiyyət kəsb edir.***

### Estetikdir, amma...

İmplant, əskik dişlərin funksiyasını və estetikasını bərpa etmək üçün çənə sümüyünə yerləşdirilən süni diş köküdür. İmplant vintləri müəyyən bir qalınlığa və genişliyə malik olan dəmir strukturlardır. Bu səbəbdən implantın qoyulması planlaşdırılan nahiyədəki çənə sümüyü bu implant kökünü qəbul edəcək hündürlük və genişliyə, habelə sağlamlığa malik olmalıdır. Çünki sümük keyfiyyəti implantın tətbiqinin və istifadəsinin uğurlu olmasına təsir edən amillərdən biridir. Bundan əlavə, diş ətləri müalicədən əvvəl və implant ağızda qaldığı müddətcə tam sağlam olmalıdır. İnsanda implanta uyğun sümük toxuması olmalıdır. Sümük toxuması müəyyən edilməli və sonra implant planlaması aparılmalıdır. İmplant tətbiq etməzdən əvvəl klinik və radioloji müayinə aparılmalıdır.

İnsanın sümük quruluşu və ümumi sağlamlıq vəziyyəti uyğun olarsa implantlar üçün yuxarı yaş həddi yoxdur. Bu məsələdə sağlamlıq yaşdan daha vacib amildir. 70 və ya 80 yaşlarında olan bir çox sağlam xəstələrin cərrahi riskləri, mövcud sağlamlıq problemləri olan gənc xəstələrə nisbətən daha azdır. Həmçinin sümük inkişafı tamamlanmamış çox gənc xəstələrdə implant tətbiqinə üstünlük verilmir.

İmplantın müddəti qoyulacaq dişlərin sayına görə dəyişə bilər. Mövcud texnologiya ilə müalicələr çox qısa müddətdə tamamlana bilir.

### İmplant qoydurmalı, ya yox?

İmplant tətbiqi zamanı xəstənin seçimindən asılı olaraq ümumi və ya lokal anesteziya istifadə edilə bilər.

İmplantların sümüklə tam inteqrasiyasını təmin etmək üçün sağalma dövrünün ilk 3-6 ayı ərzində implanta düşən yüklər minimuma endirilməlidir. Yəni çox bərk qidalar çeynənməməli, sağalma zamanı siqaret çəkilməməlidir. Siqaret infeksiya riskini artıra bilər. Bu səbəbdən siqaret çəkmək tövsiyə edilmir.

İmplantların ömrü bir çox amillərdən asılıdır. Xəstə, ümumi ağız və diş baxımını təmin edərək sağlamlığını qoruduğu müddətcə implantlar ömür boyu istifadə edilə bilər. İmplantın ömrü üçün gündə iki dəfə dişləri düzgün fırçalamaq və mütəmadi olaraq diş ipi və ağız yaxalamasından istifadə etmək lazımdır.

İmplantların orqanizmə heç bir əks təsiri olmadığı və illərdir intensiv araşdırmalara məruz qalan materiallardan hazırlandığı iddia edilir. Bunlar adətən titan kimi metallar və heç vaxt canlı orqanizmin bir hissəsi olmayan digər oxşar maddələrdir. İddialara görə, bu səbəbdən orqanizmin onlara qarşı antigen istehsal etməsi və implantı ürək və böyrək nəqlində olduğu kimi rədd etməsi mümkün deyil. İmplant tətbiqini həyata keçirəcək həkimin təcrübəsi çox önəmlidir. Diş həkimi seçərkən onun implant sahəsində təlim keçmiş və təcrübəli olmasına diqqət yetirilməlidir. İmplant qoydurmaq qərarı verilibsə, bu istiqamətdə hərtərəfli araşdırma aparılmalı və doğru həkim tapılmalıdır.

### İmplant nə vaxt zərərli ola bilər?

Klassik səslənə bilər, amma qaydalara əməl edilmədikdə implantın zədələnməsi təbiidir. Qaydalar implantın özündən başlayır. İmplant məhsulu sertifikatlaşdırılmalıdır, mənşəyi aydın olmalıdır. Keyfiyyətli və zəif implantlar arasında əhəmiyyətli fərqlər var. Bu gün keyfiyyətli implantlarla əldə edilən cərrahi müvəffəqiyyət 98% ətrafındadır.

"İmplant zərərlidirmi?" sualına isə aydın cavab vermək lazımdır. Mütəxəssislər deyir ki, düzgün və qaydalara uyğun tətbiq edildikdə, habelə baxımına diqqət etdikdə implant heç vaxt zərərli deyil. İmplant qoyulmasının zərərləri tətbiq qaydalarına əməl edilmədikdə başlayır. Doğru həkimi seçmək, düzgün planlaşdırma, keyfiyyətli material, keyfiyyətli tətbiq, yaxşı implantüstü protez və ya qapaq, prosedurdan sonrakı diqqət, tez-tez müayinə bu qaydaların ən vaciblərdir.

Ən çox rast gələnən problemlərdən biri də cərrahi əməliyyat zamanı implantların düzgün yerləşdirilməməsidir. Bu, həkimin təcrübəsi, diqqəti və əməliyyat zamanı xəstənin həkimlə ünsiyyəti kimi amillərdən qaynaqlanan vəziyyətdir. Ən çox edilən implant səhvləri isə yanlış yerləşdirmə, sinir zədələnməsi, implant infeksiyası, implantdan sonra ağrı və ya qanaxma, implantın uğursuzluğu, yanlış implant diametri və ya ölçüsü seçimidir. Yəni, kənardan asan bir stomotoloji prosedur kimi görünən implant tətbiqi həkimin yaxud öz səhvinizdən həyatınızı kabusa çevirə bilər.

### Kimlərə implant olmaz?

Şiddətli ürək çatışmazlığı, ürək qapağı problemi olan xəstələrə, müalicə altında olan xərçəng xəstələrinə, psixi problemləri olanlara, əqli qüsurlu insanlara, çənə sümüyünün strukturuna zərər verəcək yüksək dozada radiasiyaya məruz qalanlara, immunitet sisteminə hücum edən xəstəliklərə, məsələn, QİÇS daşıyıcısı olanlara, orqan transplantasiyası edilən insanlara, baş və boyun nahiyəsində radioterapiya qəbul edənlərə, hamilələrə, narkotik və alkoqol asılılığı olanlara, immun sisteminin problemi yaşayanlara, diş sıxma və diş qıcama problemi olanlara, çənələrdə inkişaf etmiş skelet quruluşu problemi yaşayanlara, ağız sağlamlığına diqqət etməyənlərə implant tətbiqi məsləhət görülmür.

Təyinatı üzrə işləməyəndə, implant qoyulması riskləri olan insanlara tətbiqi zamanı bir sıra problemlər meydana çıxır ki, onlar da implant sınığı, sümüklərin canlılığının itirilməsi, tətbiq zamanı xəstənin uda biləcəyi yad cisimlər, çənədə sümük sınığı, implant yerləşdirmə nəticəsində ağrı, yara nahiyəsindəki tikişlərin açılması, qapaq tətbiqinədək mümkün infeksiya riski, yumşaq toxumanın implant alətləri ilə zədələnməsi və s. misal göstərmək olar.

### Çox bahadır

İmplant əməliyyatı 4 mərhələdən ibarətdir. İmplantın müvafiq diş yerinə tətbiqi, 10-14 gün sonra tikişlərin sökülməsi, dişəti formalaşdıran bağlanılır, 2-3 həftə sonra ölçü götürülür və qapaq qoyulur. Ölkəmizdəki diş implantı klinikalarında təklif edilən qiymətlərə gəlincə, Türkiyə implantı - 400 AZN, Koreya implantı - 450 AZN, İsrail implantı - 500 AZN, Almaniya implantı - 700 AZN, İsveçrə implantı - 900 AZN-ə təklif edilir.

Bundan əlavə, 1 diş olmadıqda 1 implant tətbiq olunur ki, qiyməti 450 AZN, 2 diş olmadıqda 2 implant tətbiq olunur, qiyməti 900 AZN, 3 diş olmadıqda 2 implant körpü tətbiq olunur 900 AZN, 4 diş olmadıqda 2 implant tətbiq olunur, qiyməti 900 AZN. Qeyd edək ki, bu yalnız diş ətinə əkilən dəmir konstrukturun qiymətidir, qapaq qiyməti bura əlavə olunur. Bütün alt və ya üst çənə dişsiz olduqda 6 implant tətbiq olunur ki, dəyəri 2700 AZN-dir.

***Lalə Mehralı***

SON SƏHİFƏ
SƏS
22 noyabr
2023-cü il

# Darçın adı ilə satılan ədviyyat xərçəng yaradır?

## QİDA TƏDQİQATÇISI DANIŞDI





"Darçın mətbəximizdə tez-tez istifadə olunan ədviyyatlardandır. Xüsusilə südlü şirniyyatların üzərinə bol-bol səpilir. Azərbaycan bazarında satılan darçınlar mənşə etibarilə əksəriyyətlə idxal Çin və İndoneziya darçınlarıdır. Çubuq, qabıq ya da toz halında satılır". Bu sözləri SİA-ya açıqlamasında təhlükəsiz qida tədqiqatçısı Asim Vəliyev deyib. Asim Vəliyev sözlərinə belə davam edib: "Hər qidada olduğu kimi darçın da düzgün istifadə edildikdə faydaları çoxdur. Xüsusilə qış aylarında soyuqdəyməyə, boğaz ağrılarına və infeksiyalı narahatlıqlara qarşı çox faydalıdır və metobolizmanı gücləndirir. Darçın qanımızdakı oksigen səviyyəsini artırma xüsusiyyətinə malikdir. Bunun nəticəsində metobolizma güclənir və soyuqdəymədən yaranan xəstəliklərə yaxalanma riskini azaldır.

Pəhriz saxlayanlar da şəkər əvəzinə darçından istifadə edirlər. Qan şəkərini tənzimləyir, qan dövranını artırır. Bu səbəbdən çəki atmağı sürətləndirir. Meyvələrə, qatıq və südə əlavə edilərək darçın qəbul edilərsə, insanı tox saxlayır. Həzm sistemi üçün də darçın çox faydalıdır. Şişlik, qəbzlik, qaz kimi narahatlıqların müalicəsində də darçın təbii bir dərman təsiri göstərir və bu kimi narahatlıqların qarşısını alır. Darçın ağız və diş sağlamlığı baxımından da çox faydalıdır. Xoşa gəlməyən ağız qoxusunun qarşısını almaqda da kömək edir. Son dövrlərdə darçın aromalı diş məcunları daha çox istifadə olunur. Həmçinin antibakerial xüsusiyyətinə görə ağızdakı bakteriların çoxlamasının qarşısını alır. Nəticədə də diş əti narahatlığının qarşısını alır və çürümələrini ləngidir.

Darçın miqdarında və düzgün istifadə edilmədiyi təqdirdə də sağlamlığımıza da zərərləri ola bilər. Əgər təzyiq kimi narahatlığınız varsa, bu səbəbdən dərman istifadə edirsinizsə, darçından az istifadə edin. Çünki bu dövrlərdə çox darçın istifadə etmək qan şəkərində ani dəyişikliklərə səbəb ola bilər. Əgər qaraciyəriniz xəstədirsə, darçın istifadəsini həkimlə məsləhət edin. Darçın çayını gündə 1 stəkan içməyiniz tövsiyə olunur. Daha çox orqanizmə zərər verə bilər.

Darçında yüksək miqdarda kumarin maddəsi olduğunu dair akademik araşdırmalar mövcuddur. Çox darçın qəbul etdikdə tərkibdə olan kumarin qan laxtalanmasının qarşısını aldığı kimi, qaraciyər üçün də sağlamlıq problemlərinə gətirib çıxara bilir. Heyvanlar üzərində aparılan bəzi araşdırmalar həddindən artıq darçın qəbulunun xərçəngə səbəb olduğunu ortaya çıxarır. Məsələn, gəmiricilər üzərində aparılan araşdırmalar həddindən çox kumarin qəbul etmək ağciyərdə, qaraciyərdə və böyrəklərdə şişlərin əmələ gəlməsinə səbəb ola biləcəyini göstərir. Ancaq daha dəqiq məlumat verə bilmək üçün geniş araşdırmaya ehtiyac var.

Avropa Qida Təhlükəsizliyi Agentliyi 70 kq çəkiyə malik bir fərdin gündəlik qəbul ediləcək kumarin miqdarını 7 mq müəyyən edir. Araşdırmalarda 1 qr seylon darçınında 0.1 mq, 1 qr çin darçınında isə 3.8 mq kumarin mövcuddur. Gündəlik 2 qr Çin darçını istifadə etmək maksimum dozaya bərabərdir".

***A. Vəli***


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Qış turizmi neçəyə başa gəlir?

## EKSPERT AÇIQLADI



"Artıq havalar soyuyur və qış fəslinə yaxınlaşırıq. Bu vəsilə ilə turizmdə də qış mövsümünə keçid dövrüdür. Müəyyən regionlarda qar yağdığını da eşidirik. Bütün bunlarla yanaşı yeni il ərəfəsində tətil günlərində insanlarımız qış fəslini yaşamaq üçün regionlara səfər edirlər. Bu özünü qarşıdan gələn bayram günlərində daha çox göstərəcək". Bu sözləri SİA-ya açıqlamasında turizm eksperti Ceyhun Aşurov deyib.Ceyhun Aşurov sözlərinə belə davam edib: "Buna müvafiq olaraq həmin dövrdə baxmayaraq ki insanların daha çox hissəsi yayda istirahət edir. Amma qış mövsümündə də məhz qış turizmini yaşamaq üçün səyahətə çıxırlar.

Qışda müəyyən turist seqmenti var ki, onlar qış turizm məhsullarından olan kanat, xizək və dağdan sürüşməyə üz tuturlar. Belə bir təsisat Azərbaycanda üç böyük məkanda standartlara cavab verir. Bunlardan Naxçıvanda Ağbulaq, Tufandağ və Şahdağı nəzərdə tuturam. Burada kanat qiymətləri də müxtəlifdir. Təxminən qiymətlər bir-birinə yaxındır. Bu turistin öz seçiminə bağlıdır. Turist bütün qış turizm məhsullarından istifadə edirsə bu təxminən 90-100 manata başa gəlir. Əgər yalnız kanatdan istifadə edirsə, bu da 20-30 manat aralığında dəyişir. Bunu həmin təsisatlar öz sosial şəbəkələrində müəyyən period aralıqlarına uyğun, tələbatın yüksək və ya aşağı olmasına, tətil günlərinə görə qeyd edirlər. Qiymətlər uşaqlar və böyüklər üçün fərqlidir.

Aydın məsələdir ki, tələbatın yüksək olduğu tətil günləri ümumiyyətlə həftəsonu qiymətləri digər günlərə nisbətən daha yüksəkdir. Bunun səbəbi də bazar qanunlarına görə tələbatdır. Çünki bu zaman insanların qeyri-iş günləri və asudə vaxtları olur".

***Ayşən***

# Uşaqlara cinsi tərbiyə verərkən bunlara diqqət edin!

## PSİXOLOQ FİKRİ



"Uşaqlarda cinsi tərbiyə 0 yaşdan başlanılmalıdır. Burada cinsi tərbiyə dedikdə uşağın bədəninin məhrəmliyinin izah edilməsi nəzərdə tutulur. Uşaqlara bədənlərinin toxunulmaz olduğu öyrədilməlidir". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Fidan Nizamova deyib. Psixoloq bildirib ki, valideynlər xaricində heç kimin uşağın bədəninə toxunma ixtiyarı yoxdur: "Burada əsasən cinsi orqanlar nəzərdə tutulur ki, valideynlər xaricində heç kim uşaqları yuyundurmamalı, məhrəm yerlərinə toxunmamalıdır: "Uşaq anlamalıdır ki, həkim və bu qəbildən olan bir neçə peşə sahibləri xaricində heç kim onların paltarlarını soyundurub, şəkillərini çəkə bilməz.

Bəzi valideynlər uşaqlara cinsi orqanlar barədə məlumat verməyə çəkinir. Lakin bunun düzgün şəkildə izah edilməsi mütləqdir. Burada məsələni həddindən artıq qabartmaq və ya uşaqları hər hansı miflərlə qorxutmağa da ehtiyac yoxdur. Hər hansı mövzu gizli saxlanıldıqda uşaqlarda maraq oyadır, qabardıldıqda isə mənasını itirir".

***Səbinə Hüseynli***


**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**